RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 118 (10138) 8 iyul 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyevin Donald Trampla şəxsi münasibətləri yüksək səviyyədədir

### Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.

2

## Azərbaycan diplomatiyasının konturları

### Etimad, qətiyyət, tərəfdaşlıq və milli maraq



Müasir diplomatiyanın əsas üstünlüyü həm də gələcəyin siyasi və iqtisadi xəritəsini də formalaşdırmaq bacarığıdır. Azərbaycanın xarici siyasəti məhz bu baxımdan diqqəti cəlb edir. Ölkəmiz qlobal güclər arasında seçim edən deyil, müxtəlif siyasi mərkəzlərlə qarşılıqlı faydalı əməkdaşlıq quran, etimad körpüləri yaradan və milli maraqlarını prinsipial şəkildə qoruyan müstəqil dövlət kimi çıxış edir. Bu gün Azərbaycanın artan beynəlxalq nüfuzu gələcəkdə regional və qlobal proseslərə daha böyük təsir göstərə biləcək siyasi potensialının ifadəsidir.

Ölkəmizin xarici siyasətinin ən mühüm xüsusiyyətlərindən biri də müxtəlif siyasi qütblərlə eyni vaxtda qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq qura bilməsidir. Müasir dünyanın mürəkkəb geosiyasi şəraitində bu, hər dövlətə nəsib olmayan üstünlükdür. Milli maraqları əsas götürən Azərbaycan həm Qərb dövlətləri, həm türk dünyası, həm Mərkəzi Asiya ölkələri, həm də digər tərəfdaşlarla etimada söykənən münasibətlər quraraq beynəlxalq manevr imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib.

Son aylar ABŞ ilə Azərbaycan arasında siyasi dialoqun intensivləşməsi də bu reallığın bariz nümunəsidir. Təhlükəsizlik, enerji, nəqliyyat və iqtisadi əməkdaşlıq sahələrində formalaşan qarşılıqlı etimad, təmasların artması və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini göstərir.

Avropa İttifaqı ilə əməkdaşlıq da yeni məzmun qazanır. Əgər əvvəlki dövrdə münasibətlərin əsasını enerji sahəsi təşkil edirdisə, artıq tərəfdaşlığın gündəliyi xeyli genişlənib. Orta dəhlizin inkişafı, nəqliyyat-kommunikasiya layihələri, rəqəmsal transformasiya, "yaşıl enerji", logistika, investisiyalar və regional təhlükəsizlik əməkdaşlığın əsas istiqamətlərinə çevrilib. Bu isə Azərbaycanın Avrasiya məkanında yeni iqtisadi əlaqələrin qurulmasında strateji tərəfdaş kimi qəbul olunduğunu göstərir.

Xüsusən Orta dəhlizin beynəlxalq əhəmiyyətinin artması Azərbaycanın geostrateji mövqeyini daha da gücləndirib. Avropa ilə Asiyanı ən qısa və etibarlı marşrutla birləşdirən bu nəqliyyat xətti qlobal iqtisadiyyatın mühüm elementlərindən birinə çevrilməkdədir.

Enerji diplomatiyasında da yeni mərhələ başlanıb. Uzun illər Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verən Azərbaycan bu gün bərpaolunan enerji sahəsində də etibarlı tərəfdaş kimi çıxış edir. Xəzərin "yaşıl enerji" potensialından istifadə, elektrik enerjisinin Qara dəniz vasitəsilə Avropaya ötürülməsi və digər perspektivli layihələr ölkəmizin gələcəyin enerji xəritəsində də mühüm mövqeyə malik olacağını göstərir.

9

## Siyasi iradədən strateji tərəfdaşlığa

### Azərbaycan-ABŞ münasibətləri yeni keyfiyyət mərhələsində daha da dərinləşir



İki dövlət arasındakı sıx dialoqun və formalaşmış yeni siyasi etimadın nümunələrindən biri də rəsmi məktublaşmalarda özünü büruzə verir. ABŞ Prezidenti Donald Trampın əlamətdar günlərdə ünvanladığı məktublarda Azərbaycanla əlaqələrin önəminə diqqət çəkilməsi, eləcə də dövlətimizin başçısının iyun ayında amerikalı həmkarının 80 illik yubileyi münasibətilə göndərdiyi təbrik tərəfdaşlığın əhəmiyyətini göstərir. Bu kontekstdə Prezident İlham Əliyevin Donald Trampa ABŞ-nin müstəqilliyinin 250-ci ildönümü münasibətilə ünvanladığı məktub xüsusi rəmzi məna daşıyır. Dövlətimizin başçısı məktubda son dövrdə ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etməsinin böyük məmnunluq doğurduğunu qeyd edərək strateji tərəfdaşlıq əlaqələrini yüksək qiymətləndirib: "Fevral ayında imzalanan və münasibətlərimizi keyfiyyətcə yeni mərhələyə qaldıran "Strateji Tərəfdaşlıq Xartiyası"nın iqtisadiyyat, enerji, bağlantılar, təhlükəsizlik kimi ənənəvi sahələrlə yanaşı, rəqəmsal transformasiya, süni intellekt və digər mühüm istiqamətlər üzrə tərəfdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyimi ifadə edirəm".

9

## Rəqəmsal inkişaf strategiyasının hüquqi bazası formalaşdırılır



İyulun 7-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılığı ilə Azərbaycan Respublikasının nümayəndə heyətinin iyulun 3-də İran İslam Respublikasına səfəri barədə məlumat verib. Qeyd edilib ki, səfərdə məqsəd İranın mərhum Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak etmək olub.

Spiker diqqətə çatdırıb ki, səfər çərçivəsində İran Prezidenti Məsud Pezeşkian, İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqer Qalibaf və digər rəsmilərlə görüşüb. Görüşlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin adından başsağlığı ifadə olunub, Azərbaycan xalqının dərin hüzn və ehtiramı İran xalqına çatdırılıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 17 məsələnin müzakirə ediləcəyini nəzərə çatdırıb.

6

## Qarşılıqlı etimad üzərində qurulan strateji tərəfdaşlıq

### Azərbaycan-Belarus münasibətləri hər iki dövlətin milli maraqları çərçivəsində intensiv inkişaf edir



Ümummilli Lider keçmiş ittifaq respublikaları ilə münasibətlərdə emosional və ya nostalji yanaşmanı yox, milli maraqlara əsaslanan praqmatik siyasəti üstün tuturdu. Ulu Öndər hesab edirdi ki, SSRİ dövründə formalaşmış istehsal zəncirləri, sənaye əlaqələri və iqtisadi potensial yeni dövrdə də qarşılıqlı fayda əsasında davam etdirilə bilər. Belarusun maşınqayırma, kənd təsərrüfatı texnikası və ağır sənaye sahəsində malik olduğu imkanlar Azərbaycan üçün mühüm əhəmiyyət daşıyırdı. Məhz həmin dövrdə yaradılan hüquqi baza sonrakı illərdə münasibətlərin sürətli inkişafı üçün etibarlı fundament rolunu oynadı. Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə münasibətlər strateji tərəfdaşlıq mərhələsinə yüksəldi. Ümummilli Liderin müəyyənləşdirdiyi xarici siyasət kursu Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirildi və yeni məzmun qazandı. 30 ildən artıq dövr ərzində Azərbaycan-Belarus münasibətləri təkcə diplomatik əlaqələr səviyyəsində qalmadı, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı, hərbi-texniki əməkdaşlıq, humanitar sahələr və beynəlxalq təşkilatlar çərçivəsində çoxşaxəli strateji tərəfdaşlığa çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenko arasında formalaşmış qarşılıqlı etimad münasibətlərin inkişafında xüsusi rol oynadı və bu gün də oynamaqdadır. Dövlət başçılarının qarşılıqlı səfərləri, müntəzəm görüşləri və siyasi dialoqu hökumətlər, parlamentlər və işgüzar dairələr arasında əməkdaşlığı getdikcə genişləndirir.

10

## Uşaqların zərərli təsirlərdən qorunması dövlətin sosial siyasətinin tərkib hissəsidir

### Bu cür təsirlərin ən təhlükəlisi isə nəzarətsiz sosial şəbəkələrdədir



Uşaqların zərərli təsirlərdən qorunması dövlətin sosial siyasətinin əsas tərkib hissəsidir. Bu məsələ fərd, ailə, cəmiyyət və dövlət üçün böyük əhəmiyyət kəsb edir. Bununla bağlı görülən bütün tədbirlər uşaqların sağlamlığı və rifahı üçün tətbiq edilir. Dünyanın bir çox inkişaf etmiş ölkələrində bununla bağlı təcrübə artıq mövcuddur. Çünki müasir dövrdə sosial şəbəkələrin uşaqlara zərərli təsirləri bütün dünyada ciddi narahatlıq doğurur. Ona görə də dünya ölkələri sosial media platformalarında uşaqların təhlükəsizliyini təmin etmək üçün müxtəlif hüquqi və yaş məhdudiyyətləri sistemləri tətbiq edirlər. Danimarka, eləcə də ABŞ-nin Kaliforniya, Texas, Nyu York kimi ştatları sosial şəbəkələrə giriş üçün ən yüksək yaş həddini (18 yaş) tətbiq edir. ABŞ federal səviyyədə isə bu həddi 17 yaş olaraq müəyyən etmək istəyir. Fransa (15 yaş), İspaniya (16 yaş), eləcə də ABŞ-nin Kolorado, Florida kimi bəzi ştatları uşaqların qeydiyyatı üçün daha erkən yeniyetməlik dövrünü əsas götürürlər. Avstraliya, Böyük Britaniya və İrlandiya kimi ölkələr konkret yaş həddi ilə yanaşı, platformaların üzərinə uşaqları qorumaq üçün birbaşa hüquqi öhdəliklər qoyan xüsusi təhlükəsizlik sistemləri və qanunlar qəbul ediblər. Norveç isə bu addımları 2026-cı ilin sonuna qədər tamamlamağı planlaşdırır. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan da sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur.

12

# Prezident İlham Əliyevin Donald Trampla şəxsi münasibətləri yüksək səviyyədədir

## Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, Avropa və Regional Təhlükəsizlik Əməkdaşlığı üzrə Alt Komitəsinin sədri, senator Stiv Deynsi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Donald Trampın ikinci dəfə ABŞ Prezidenti seçilməsindən sonra əməkdaşlıq və qarşılıqlı etimada əsaslanan ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bunun ölkələrimiz, eyni zamanda region üçün çox önəmli olduğunu dedi.

Dövlətimizin başçısı ABŞ-nin vitse-prezidenti Cey. Di. Vensin Azərbaycana səfərini məmnunluqla xatırladı, həmin səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının ikitərəfli əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev Donald Trampla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğunu deyərək, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasında onun xüsusi rol oynadığını vurğuladı.

Stiv Deynsin ölkəmizə son səfərindən sonra tarixi hadisələrin baş verdiyini qeyd edən dövlətimizin başçısı Azərbaycan-ABŞ əlaqələrinin inkişafı istiqamətində göstərdiyi səylərə görə qonağa təşəkkürünü bildirdi.

Senator Stiv Deyns də öz növbəsində son dövrlərdə ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini dedi, Azərbaycan Prezidentinin ötən ilin avqustunda Vaşinqtona səfərinin əlamətdar hadisə olduğunu vurğuladı.

Qonaq eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın geosiyasi səviyyədə mühüm rolunu qeyd etdi.

Stiv Deyns Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyi ilə əlaqədar nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından əhəmiyyəti vurğulandı, Azərbaycanla ABŞ Senatı arasında dialoqun möhkəmləndirilməsi və tərəfdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# "Metrik Konvensiya"ya qoşulmaq haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1875-ci il mayın 20-də Paris şəhərində imzalanmış "Metrik Konvensiya"ya qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa edildikdən sonra ilk dəfə ölkənin bütün ərazisi üzrə əhaliyə dair müfəssəl məlumatların əldə edilməsi və sosial-demoqrafik vəziyyətin qiymətləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2029-cu il oktyabrın 1-nə olan vəziyyət üzrə əhalinin növbəti siyahıyaalınması həmin ilin oktyabrın 1-dən 31-dək keçirilsin.

2. Əhalinin siyahıyaalınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə həvalə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. 2029-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planını iki ay müddətində təsdiq etsin;

3.2. əhalinin siyahıyaalınması ilə bağlı zəruri məlumatların inzibati mənbələrdən əldə edilməsi üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarında və sistemlərində olan müvafiq məlumatların Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumat bazasına inteqrasiyasının təmin edilməsi ilə bağlı tədbirlər görsün;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280, (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddələr 1, 15, № 2, maddə 99, № 3, maddə 217, № 4 (I kitab), maddələr 305, 311, № 5, maddələr 434, 440, № 6, maddə 529, № 7, maddələr 607, 619, 626, № 8, maddələr 736, 741; 2026, № 1, maddələr 18, 19, № 3, maddələr 202, 212; Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 192.13-cü, 192.14-cü, 253-1.5-ci və 439-3-cü maddələr əlavə edilsin:

"192.13. Tibbi müayinə (tibbi yoxlama) haqqında rəyə əsasən narkoloji xəstə olan şəxslə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilməsi ilə bağlı əmək müqaviləsinin bağlanılmasına və ya əmək münasibətlərinin davam etdirilməsinə görə -

vəzifəli şəxslər üç min manat məbləğində cərimə edilir.

192.14. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş hallarda işçinin sağlamlığı haqqında tibbi arayış, habelə narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinə və vəzifələrə işə qəbul edilərkən tibbi müayinə (tibbi yoxlama) haqqında rəy olmadan işçinin müvafiq peşə və ya vəzifəyə işə qəbul edilməsinə görə -

vəzifəli şəxslər min manat məbləğində cərimə edilir.";

"253-1.5. Barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi barədə yalan və (və ya) təhrif olunmuş məlumatın verilməsinə görə -

fiziki şəxslər beş yüz manat miqdarında, vəzifəli şəxslər üç min manat miqdarında, hüquqi şəxslər beş min manat miqdarında cərimə edilir.";

**"Maddə 439-3. Maliyyə icarəsi haqqında qanunvericiliyin pozulması**

Maliyyə icarəsi fəaliyyətini həyata keçirən şəxslər (banklar, xarici bankların yerli filialları və bank olmayan kredit təşkilatları istisna olmaqla) tərəfindən maliyyə icarəsi fəaliyyətinə dair hesabatların "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilməməsinə, yaxud düzgün təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.";

1.2. 440.1-ci maddənin dispozisiyasında "və ya bank olmayan kredit təşkilatı (kredit ittifaqı istisna olmaqla)" sözləri ", bank olmayan kredit təşkilatı (kredit ittifaqı istisna olmaqla) və ya maliyyə icarəsi fəaliyyətini həyata keçirən şəxs" sözləri ilə əvəz edilsin və həmin maddənin dispozisiyasına "təşkilatları haqqında" sözlərindən sonra ", "Maliyyə icarəsi haqqında" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 447-1-ci maddə əlavə edilsin:

**"Maddə 447-1. Ərzaq balansının tərtibi ilə bağlı zəruri məlumatların təqdim edilməməsi**

447-1.1. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına (tədarükünə) dair məlumatların ildə bir dəfə, həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatların isə növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilməməsinə görə -

fiziki şəxslər yüz manat məbləğində, vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər beş yüz manat məbləğində cərimə edilir.

447-1.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müəyyən edilmiş məhsullara dair məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ərzaq balansının tərtibi ilə bağlı ildə bir dəfə verilən yazılı sorğusuna əsasən ərzaq məhsullarının istehsalı, emalı, saxlanılması, idxalı, ixracı və satışı sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən 15 iş günü müddətində təqdim edilməməsinə görə -

vəzifəli şəxslər iki yüz manat məbləğində, hüquqi şəxslər beş yüz manat məbləğində cərimə edilir.

447-1.3. Bu Məcəllənin 447-1.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər min manat məbləğində cərimə edilir.

**Qeyd:**

1. Bu Məcəllənin 447-1.1-ci və 447-1.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaları törətmiş şəxs həmin xətaların törədilməsinə səbəb olan halları 10 iş günü müddətində aradan qaldırdıqda inzibati məsuliyyətdən azad olunur.

2. Bu Məcəllənin 447-1.1-ci və 447-1.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsinə görə inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən həmin xətaların törədilməsinə səbəb olan hallar 10 iş günü ərzində aradan qaldırılmalıdır. Bu müddət ərzində şəxs həmin əməlin törədilməsinə görə təkrarən inzibati məsuliyyətə cəlb olunmur.".

**Maddə 2.** Bu Qanunun 1.1-ci (439-3-cü maddəyə münasibətdə) və 1.2-ci maddələri "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2026-cı il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 423-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 423-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 192.13-cü, 447-1.1-ci və 447-1.2-ci (hər iki halda) maddələrinin dispozisiyasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 192.13-cü və 447-1.2-ci (birinci halda) maddələrinin dispozisiyasında "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 447-1.1-ci maddəsinin dispozisiyasında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 447-1.2-ci maddəsinin dispozisiyasında ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 423-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123, № 3, maddələr 221, 223, 226, № 4, maddə 306; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bəndə "192.3," rəqəmlərindən sonra "192.13," rəqəmləri, "445-1.4," rəqəmlərindən sonra "447-1.1, 447-1.2 (hər iki halda)," sözləri əlavə edilsin;

3.1.2. 4.3-1-ci bəndə "162-1.1-ci," sözlərindən sonra "192.13-cü," sözləri, "445-1.4-cü," sözlərindən sonra "447-1.2-ci (birinci halda)," sözləri əlavə edilsin;

3.1.3. 4.26-1-ci bənd 4.26-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.26-1-ci bənd əlavə edilsin:

"4.26-1. həmin Məcəllənin 447-1.1-ci maddəsinin dispozisiyasında "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur;";

3.1.4. 4.33-cü bəndə "429.0.2-ci" sözlərindən sonra ", 447-1.2-ci (ikinci halda)" sözləri əlavə edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.4-cü bəndə "192.11-ci," sözlərindən sonra "192.13-cü, 192.14-cü," sözləri əlavə edilsin;

3.2.2. 5.11-ci bənddə "253-1.4" rəqəmləri "253-1.5" rəqəmləri ilə əvəz edilsin;

3.2.3. 5.15-ci bənddə "və 411-2-ci" sözləri ", 411-2-ci, 447-1.1-ci və 447-1.3-cü" sözləri ilə əvəz edilsin;

3.2.4. 5.47-ci bənddə ", 439-1, 439-2" rəqəmləri "- 439-3" rəqəmləri ilə əvəz edilsin;

3.2.5. 5.58-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.58-1. həmin Məcəllənin 429.0.2 - 429.0.4-cü, 447-1.2-ci, 477-1.1.7-ci və 602-1-ci (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən törədilən inzibati xətalar istisna olmaqla) maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi baxır;";

3.2.6. 5.70-1-ci bənd ləğv edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (l kitab), maddələr 1294, 1295, (ll kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117, № 3, maddələr 223, 226; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 may tarixli 660 nömrəli və 19 iyun tarixli 686 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 15.0-cı bəndində ", 439-1, 439-2" rəqəmləri "- 439-3" rəqəmləri ilə əvəz edilsin.

5. Bu Fərmanın 3.2.4-cü yarımbəndi və 4-cü hissəsi "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 412-VIIQ nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyul 2026-cı il*

# Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası gəlirlər 39 184 560,9 min manat, xərclər 38 604 559,6 min manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **2.1.** | **Gəlirlərin mənbələri** | **39 184 560 879** |
| 2.1.1. | Fiziki şəxslərin gəlir vergisi | 2 021 472 252 |
| 2.1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 6 694 634 192 |
| 2.1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 47 341 230 |
| 2.1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 355 694 140 |
| 2.1.5. | Əlavə dəyər vergisi | 8 944 774 941 |
| 2.1.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 4 322 334 695 |
| 2.1.6. | Sadələşdirilmiş vergi | 415 880 618 |
| 2.1.7. | Aksizlər | 1 696 893 810 |
| 2.1.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 232 749 739 |
| 2.1.8. | Yol vergisi | 132 197 084 |
| 2.1.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 44 020 775 |
| 2.1.9. | Mədən vergisi | 148 068 284 |
| 2.1.10. | Gömrük rüsumları | 1 770 793 905 |
| 2.1.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 90 842 027 |
| 2.1.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 001 000 |
| 2.1.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 636 642 654 |
| 2.1.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 14 481 000 000 |
| 2.1.15. | Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə və idarəetməyə verilməsindən daxilolmalar | 46 528 745 |
| 2.1.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 16 290 277 |
| 2.1.17. | Dövlət rüsumu | 332 197 539 |
| 2.1.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 58 003 190 |
| 2.1.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 679 612 848 |
| 2.1.20. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları üzrə daxilolmalar | 66 652 354 |
| 2.1.21. | Sair daxilolmalar | 547 039 789 |
| 2.1.21.1. | 2025-ci ildə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə yaranan fərq məbləği | 758 785 |
| **2.2.** | **Xərclərin istiqamətləri** | **38 604 559 553** |
| 2.2.1. | Ümumi dövlət xidmətləri | 4 456 155 002 |
| 2.2.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 487 405 303 |
| 2.2.1.2. | beynəlxalq münasibətlər | 457 927 776 |
| 2.2.1.3. | xarici yardımlar | 11 433 663 |
| 2.2.1.4. | Elm | 199 355 488 |
| 2.2.1.5. | seçki və statistika tədbirləri | 33 026 731 |
| 2.2.1.6. | büdcələrarası transfertlər | 167 477 000 |
| 2.2.1.6.1. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya (transfertin yuxarı həddi) | 160 000 000 |
| 2.2.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 7 477 000 |
| 2.2.1.7. | dövlət borcu | 2 099 529 041 |
| 2.2.2. | Müdafiə və milli təhlükəsizlik | 8 067 955 609 |
| 2.2.2.1. | müdafiə qüvvələri | 2 328 893 888 |
| 2.2.2.2. | milli təhlükəsizlik | 478 124 296 |
| 2.2.2.3. | sərhəd xidməti | 556 963 415 |
| 2.2.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 4 550 445 |
| 2.2.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 4 699 423 565 |
| 2.2.2.5.1. | xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 4 579 999 681 |
| 2.2.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 920 245 313 |
| 2.2.3.1. | məhkəmə hakimiyyəti | 141 260 800 |
| 2.2.3.2. | hüquq mühafizə | 2 306 532 458 |
| 2.2.3.3. | prokurorluq | 124 475 425 |
| 2.2.3.4. | məhkəmə qərarlarının icrası | 6 588 504 |
| 2.2.3.5. | hüquqi yardım | 6 038 468 |
| 2.2.3.6. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 335 349 658 |
| 2.2.4. | Təhsil | 4 619 497 306 |
| 2.2.4.1. | məktəbəqədər təhsil | 449 764 520 |
| 2.2.4.2. | ümumi təhsil | 2 306 934 452 |
| 2.2.4.3. | peşə təhsili | 88 991 529 |
| 2.2.4.4. | orta ixtisas təhsili | 100 806 784 |
| 2.2.4.5. | ali təhsil | 648 758 996 |
| 2.2.4.6. | əlavə təhsil | 18 945 145 |
| 2.2.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 6 927 871 |
| 2.2.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 998 368 009 |
| 2.2.5. | Səhiyyə | 1 275 289 890 |
| 2.2.5.1. | poliklinikalar və ambulatoriyalar | 17 738 300 |
| 2.2.5.2. | xəstəxanalar | 254 008 192 |
| 2.2.5.3. | diaqnostika, profilaktika və qan xidməti ilə bağlı fəaliyyət | 5 229 392 |
| 2.2.5.4. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 7 592 888 |
| 2.2.5.5. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 990 721 118 |
| 2.2.5.5.1. | icbari tibbi sığorta fonduna ayrılan vəsait | 775 900 274 |
| 2.2.6. | Sosial müdafiə və sosial təminat | 4 554 198 650 |
| 2.2.6.1. | sosial müdafiə | 474 465 102 |
| 2.2.6.2. | sosial təminat | 37 676 587 |
| 2.2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 4 042 056 961 |
| 2.2.6.3.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 600 000 000 |
| 2.2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 527 121 787 |
| 2.2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 223 651 881 |
| 2.2.7.2. | televiziya, radio və nəşriyyat | 67 707 106 |
| 2.2.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 72 774 301 |
| 2.2.7.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 22 021 497 |
| 2.2.7.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 140 967 002 |
| 2.2.8. | Mənzil və kommunal təsərrüfatı | 322 501 040 |
| 2.2.8.1. | mənzil təsərrüfatı | 66 747 062 |
| 2.2.8.2. | kommunal təsərrüfatı | 151 773 944 |
| 2.2.8.3. | su təsərrüfatı | 13 461 941 |
| 2.2.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 90 518 093 |
| 2.2.9. | Kənd təsərrüfatı | 1 120 933 666 |
| 2.2.9.1. | kənd təsərrüfatı tədbirləri | 537 071 310 |
| 2.2.9.2. | baytarlıq | 41 564 934 |
| 2.2.9.3. | meliorasiya | 539 337 691 |
| 2.2.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 2 959 731 |
| 2.2.10. | Ətraf mühitin mühafizəsi | 374 138 174 |
| 2.2.10.1. | Ətraf mühitin və təbiətin mühafizəsi | 673 945 |
| 2.2.10.2. | bioloji zənginliyin qorunması | 8 680 308 |
| 2.2.10.3. | torpaq və yerquruluşu | 15 100 000 |
| 2.2.10.4. | hidrometeorologiya tədbirləri | 9 211 547 |
| 2.2.10.5. | meşə təsərrüfatı | 21 872 426 |
| 2.2.10.6. | balıqçılıq və ovçuluq | 1 321 536 |
| 2.2.10.7. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 313 701 019 |
| 2.2.10.8. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 3 577 393 |
| 2.2.11. | İqtisadi fəaliyyət | 7 579 713 725 |
| 2.2.11.1. | nəqliyyat və rabitə | 449 973 515 |
| 2.2.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 50 840 074 |
| 2.2.11.3. | tikinti və şəhərsalma | 6 088 573 012 |
| 2.2.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 305 116 845 |
| 2.2.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası | 3 781 899 168 |
| 2.2.11.4. | geodeziya və faydalı qazıntılar | 7 416 941 |
| 2.2.11.5. | yanacaq və enerji kompleksi | 42 003 |
| 2.2.11.6. | iqtisadi fəaliyyətlə bağlı digər xidmətlər | 982 868 180 |
| 2.2.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 2 786 809 391 |
| 2.2.12.1. | ehtiyat fondları | 1 611 608 557 |
| 2.2.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 41 671 011 |
| 2.2.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 1 569 937 546 |
| 2.2.12.2. | məqsədli büdcə fondları | 376 114 402 |
| 2.2.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondları | 376 114 402 |
| 2.2.12.3. | valyuta konvertasiyası | 1 596 239 |
| 2.2.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 797 490 193 |
| 2.2.12.4.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 19 998 282 |
| 2.2.12.4.2. | ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 13 118 813 |
| 2.2.12.4.3. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 764 373 098 |
| **2.3.** | **Dövlət büdcəsinin profisiti** | **580 001 326** |
| **2.4.** | **2026-cı il yanvarın 1-nə vahid xəzinə hesabının sərbəst qalığı** | **1 330 308 960** |

**Maddə 3.** Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-1-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 iyun 2026-cı il*

# “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun 2.2-ci maddəsi ilə funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində istifadə olunan vəsaitin inzibati təsnifata uyğun olaraq dövlət büdcəsindən maliyyələşdirilən, maliyyə yardımı alan təşkilatlar və tədbirlər üzrə icrasının məbləği aşağıdakı qaydada təsdiq edilsin:

| Sıra №-si | Xərclərin istiqaməti | Xərclərin məbləği (manatla) |
|---|---|---|
| **1** | **2** | **3** |
| **1.1** | **Ümumi dövlət xidmətləri** | **4 456 155 002,0** |
| **1.1.1** | **Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti** | **1 487 405 303,0** |
| 1.1.1.1 | Azərbaycan Respublikasının Milli Məclisi | 52 034 452,0 |
| 1.1.1.2 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 238 313 916,0 |
| 1.1.1.3 | Azərbaycan Respublikasının Nazirlər Kabineti | 28 085 681,0 |
| 1.1.1.4 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 14 041 736,0 |
| 1.1.1.5 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti | 1 138 218,0 |
| 1.1.1.6 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Meşələrin İnkişafı Xidməti | 1 015 267,0 |
| 1.1.1.7 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidməti | 1 124 344,0 |
| 1.1.1.8 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti | 1 061 337,0 |
| 1.1.1.9 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 855 048,0 |
| 1.1.1.10 | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti | 7 182 417,0 |
| 1.1.1.11 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 12 981 266,0 |
| 1.1.1.12 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 28 328 437,0 |
| 1.1.1.13 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | 35 426 419,0 |
| 1.1.1.14 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti | 117 257 731,0 |
| 1.1.1.15 | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti | 14 146 150,0 |
| 1.1.1.16 | Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi | 9 930 731,0 |
| 1.1.1.17 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 24 551 362,0 |
| 1.1.1.18 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi | 1 318 350,0 |
| 1.1.1.19 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyi | 2 277 146,0 |
| 1.1.1.20 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 24 374 128,0 |
| 1.1.1.21 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi | 12 454 879,0 |
| 1.1.1.22 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi | 809 463,0 |
| 1.1.1.23 | Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti | 2 727 692,0 |
| 1.1.1.24 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi | 9 188 606,0 |
| 1.1.1.25 | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti | 4 080 321,0 |
| 1.1.1.26 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | 6 695 542,0 |
| 1.1.1.27 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti | 422 746,0 |
| 1.1.1.28 | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi | 1 512 903,0 |
| 1.1.1.29 | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi | 3 598 621,0 |
| 1.1.1.30 | Azərbaycan Respublikasının Energetika Nazirliyi | 6 473 903,0 |
| 1.1.1.31 | Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi | 1 490 211,0 |
| 1.1.1.32 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi | 7 078 492,0 |
| 1.1.1.33 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi | 1 025 244,0 |
| 1.1.1.34 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi | 1 119 792,0 |
| 1.1.1.35 | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi | 11 847 886,0 |
| 1.1.1.36 | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 3 475 349,0 |
| 1.1.1.37 | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi | 4 428 131,0 |
| 1.1.1.38 | Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 789 196,0 |
| 1.1.1.39 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 5 363 493,0 |
| 1.1.1.40 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi | 1 166 844,0 |
| 1.1.1.41 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi | 707 638,0 |
| 1.1.1.42 | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 34 784 716,0 |
| 1.1.1.43 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 7 007 844,0 |
| 1.1.1.44 | Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası | 2 204 894,0 |
| 1.1.1.45 | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi | 1 738 791,0 |
| 1.1.1.46 | Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti | 10 129 852,0 |
| 1.1.1.47 | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 57 590 283,0 |
| 1.1.1.48 | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | 17 767 447,0 |
| 1.1.1.49 | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | 3 740 555,0 |
| 1.1.1.50 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi | 3 608 332,0 |
| 1.1.1.51 | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti | 3 004 471,0 |
| 1.1.1.52 | Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi | 241 985,0 |
| 1.1.1.53 | Dövlət mükafatlarının və təltiflərinin maliyyə təminatı | 50 000,0 |
| 1.1.1.54 | Şəhər və rayon icra hakimiyyəti orqanlarının saxlanılması | 203 363 113,0 |
| 1.1.1.55 | Azərbaycan Respublikasının digər mərkəzi təşkilatlarının saxlanılması | 31 163 831,0 |
| 1.1.1.55.1 | Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) | 5 758 829,0 |
| 1.1.1.55.2 | Azərbaycan Respublikasının Hesablama Palatası | 9 632 941,0 |
| 1.1.1.55.3 | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası | 6 043 339,0 |
| 1.1.1.55.4 | Məhkəmə-Hüquq Şurası | 7 455 441,0 |
| 1.1.1.55.5 | Azərbaycan Respublikasının Audiovizual Şurası | 2 273 281,0 |
| 1.1.1.56 | Qanunvericilik və icra hakimiyyəti orqanlarının təşkilati strukturunun təkmilləşdirilməsi | 34 667 136,0 |
| 1.1.1.57 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi | 13 464 518,0 |
| 1.1.1.58 | Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları üzrə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların büdcədənkənar xərcləri | 342 976 447,0 |
| **1.1.2** | **Beynəlxalq münasibətlər** | **457 927 776,0** |
| 1.1.2.1 | Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak | 26 514 530,0 |

*Ardı 4-cü səh.*

# "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

| | | |
|---|---|---|
| 1.1.2.2 | Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları | 195 243 205,0 |
| 1.1.2.3 | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 12 642 696,0 |
| 1.1.2.4 | Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 223 527 345,0 |
| 1.1.2.4.1 | Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclər | 9 957 379,0 |
| 1.1.2.4.2 | Beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər | 213 569 966,0 |
| **1.1.3** | **Xarici yardımlar** | **11 433 663,0** |
| 1.1.3.1 | Xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımlar | 7 563 785,0 |
| 1.1.3.2 | Xarici yardımlar və bununla bağlı digər tədbirlər | 3 869 878,0 |
| **1.12.4** | **Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət** | **797 490 193,0** |
| 1.12.4.1 | Fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 19 998 282,0 |
| 1.12.4.2 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 13 118 813,0 |
| **1.12.4.3** | **Sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər** | **764 373 098,0** |
| 1.12.4.3.1 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası | 1 440 000,0 |
| 1.12.4.3.2 | Azərbaycan Respublikasının maraqlarının beynəlxalq hüquq çərçivəsində qorunması, beynəlxalq məhkəmələrdə təmsil edilməsi və həmin məhkəmələrin qərarlarının icrası ilə bağlı xərclər | 37 830 152,0 |
| 1.12.4.3.3 | Dövlət təltiflərinin hazırlanması | 3 527 886,0 |
| 1.12.4.3.4 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 6 010 240,0 |
| 1.12.4.3.4.1 | Xüsusi müdafiə olunan və bu qəbildən olan digər sənədlərin çap edilməsi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı xərclər | 387 498,0 |
| 1.12.4.3.4.2 | İşlərin qiymətləndirilməsi üçün ekspertlərin cəlb edilməsi və informasiya idarəetmə sisteminin saxlanılması | 5 519 248,0 |
| 1.12.4.3.4.3 | Beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi | 103 494,0 |
| 1.12.4.3.5 | İşğaldan azad edilmiş ərazilərdə ödənilmiş kommunal xidmətlərə və məcburi dövlət sosial sığorta haqlarına görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi | 11 714 725,0 |
| 1.12.4.3.6 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 92 209 515,0 |
| 1.12.4.3.7 | Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası | 24 540 980,0 |
| 1.12.4.3.8 | Aksiz və nəzarət markalarının sifarişi və onların dövriyyəsinə nəzarət sisteminin tətbiqi ilə bağlı tədbirlər | 1 500 000,0 |
| 1.12.4.3.9 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 3 556 488,0 |
| 1.12.4.3.10 | Yaşayış məntəqələri ilə bağlı sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 5 979 819,0 |
| 1.12.4.3.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 564 081 071,0 |
| 1.12.4.3.12 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 11 982 222,0 |

2. Müəyyən edilsin ki:

2.1. “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanununun 2.1.14-cü, 2.1.20-ci və 2.2.12.2.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 2.1.14-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu nəzərdə tutulur;

2.3. həmin Qanunun 2.1.20-ci maddəsində “məqsədli büdcə fondları” dedikdə Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur;

2.4. həmin Qanunun 2.2.12.2.1-ci maddəsində “məqsədli büdcə fondları” dedikdə “Avtomobil yolları” məqsədli büdcə fondu, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu, Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondu, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondları, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondu, Nəqliyyat vasitələrinin utilizasiyası fondu nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında” Azərbaycan Respublikasının 2026-cı il 30 iyun tarixli 428-VIIQ nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2026-cı il*

## Milli Məclisin iclasında

# Rəqəmsal inkişaf strategiyasının hüquqi bazası formalaşdırılır

**İyulun 7-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılığı ilə Azərbaycan Respublikasının nümayəndə heyətinin iyulun 3-də İran İslam Respublikasına səfəri barədə məlumat verib. Qeyd edilib ki, səfərdə məqsəd İranın mərhum Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin vida mərasimində iştirak etmək olub.**




Spiker diqqətə çatdırıb ki, səfər çərçivəsində İran Prezidenti Məsud Pezeşkian, İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqer Qalibaf və digər rəsmilərlə görüşüb. Görüşlər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin adından başsağlığı ifadə olunub, Azərbaycan xalqının dərin hüzn və ehtiramı İran xalqına çatdırılıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasda 17 məsələnin müzakirə ediləcəyini nəzərə çatdırıb.

İclasda ilk olaraq "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "İctimai iştirakçılıq haqqında" və "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) təsdiq olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Qeyd olunub ki, təqdim edilən layihə uyğunlaşdırma xarakterlidir. Belə ki, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar qanunvericiliyə müvafiq dəyişiklik təklif olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev sənəd barədə komitənin müsbət rəyini diqqətə çatdırandan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda daha sonra "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Yol hərəkəti haqqında", "Nəqliyyat haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Aviasiya haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanunn layihəsi (ikinci oxunuş) qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan doqquz məsələsi birinci oxunuşda olan qanun layihələridir. Növbəti beş məsələ ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və onların dördü mahiyyətcə bir-birinə yaxındır. Bildirilib ki, bu dörd məsələ və 13-cü məsələ ilə bağlı iclasda rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov, Milli Kibertəhlükəsizlik Agentliyi İdarə Heyətinin sədri Fərid Zeynalov, İnnovasiyalar və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri Fərid Osmanov və agentliyin Hüquq departamentinin müdiri Kaul Məmmədov dəvət olunublar.

Beləliklə, növbəti 4 məsələnin təqdimatları və müzakirələri birgə, səsvermələri ayrı-ayrı keçirilib. Onların birgə təqdimatını İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov edib. Komitə sədri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisin müzakirəsinə təqdim edilmiş innovativ fəaliyyətin dəstəklənməsinə dair qanun layihələri dövlətimizin rəqəmsal və texnoloji inkişafın yeni mərhələsi üzrə təşəbbüslərini və strateji hədəflərini özündə əks etdirir. O, bu sənədləri bir-biri ilə sıx bağlı olan, vahid innovasiya zəncirinin hüquqi təminatını yaradan inteqrə edilmiş qanunvericilik paketi kimi dəyərləndirib.

Ölkəmizdə qurulmaqda olan vahid rəqəmsal inkişaf arxitekturasını vurğulayan komitə sədri bildirib ki, innovasiyaların dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirilməsi ölkənin düşünülmüş, müasir çağırışları nəzərə alan uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. O, Prezident İlham Əliyevin rəqəmsal inkişafı dövlətimizin gələcəyini müəyyən edən mühüm amil kimi qiymətləndirdiyini xatırladaraq, təqdim olunan qanun layihələrinin bu strateji baxışın qanunvericilik müstəvisində həyata keçirilməsinə xidmət etdiyini deyib.

Komitə sədri bildirib ki, layihələr rəqəmsal inkişaf strategiyasının hüquqi bazasının formalaşdırılmasına, innovativ iqtisadiyyatın inkişafına, yeni maliyyələşdirmə mexanizmlərinin, investisiyaların, intellektual mülkiyyətin və startapekosisteminin hüquqi təminatının gücləndirilməsinə yönəlib.

O, layihələri innovasiyalar sahəsində özəl sektorun genişlənməsini, bu sahəyə investisiyaların cəlb edilməsini və Azərbaycanın regional innovasiya mərkəzlərindən birinə çevrilməsini dəstəkləyən mühüm qanunvericilik təşəbbüsü kimi dəyərləndirib.

Diqqətə çatdırılıb ki, layihələrin məqsədi vençur, kraudfandinq və "mələk investor" kimi maliyyələşmə alətlərinin milli qanunvericilikdə tanınmasını təmin etməkdir. Həmçinin bu layihələr rəqəmsal cəmiyyətin çoxsaylı anlayışlardan ibarət müasir, innovativ leksikonunu formalaşdırır. Qanunvericilik paketi innovasiya layihələrinin həyata keçirilməsində özəl sektoru ciddi şəkildə təşviq edəcək.

Komitə sədri bildirib ki, gündəliyin 9-cu məsələsi olan "Kraudfandinq haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) innovasiya layihələrinin yeni maliyyələşmə mexanizmini hüquqi müstəviyə gətirir. Kraudfandinq vasitəsilə sahibkarlar, xüsusilə startaplar və kiçik biznes subyektləri çoxsaylı investorlardan rəqəmsal platformalar üzərindən vəsait cəlb edə biləcəklər.

10-cu məsələ olan Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) 12 normativ-hüquqi akta dəyişiklikləri nəzərdə tutmaqla "Kraudfandinq haqqında" qanun layihəsinin qəbul edilməsindən sonra onun tətbiqi üçün zəruri və tamamlayıcı hüquqi baza yaradır.

Gündəliyin 11-ci məsələsi olan Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) 6 normativ akta dəyişiklikləri təklif etməklə, mahiyyətcə innovativ sahibkarlığın maliyyələşdirilməsi üçün müasir investisiya və korporativ idarəetmə mexanizmlərini milli qanunvericiliyə gətirir.

Gündəliyin 12-ci məsələsi olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də 6 normativ akta dəyişikliklər təklif etməklə, innovasiya, rəqəmsal texnologiyalar və süni intellekt sahəsində çoxşaxəli güzəştlər və təşviqlər nəzərdə tutur.

Azər Əmiraslanov sonda vurğulayıb ki, təqdim edilən qanunvericilik paketi Azərbaycanın innovasiya əsaslı inkişaf modelinə keçidində mühüm hüquqi mərhələ olmaqla innovativ sahibkarlığın maliyyələşdirilməsi üçün yeni imkanlar yaradacaq və milli iqtisadiyyatımızda ciddi keyfiyyət dəyişikliklərinə təkan verəcəkdir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli 10-cu, 11-ci və 12-ci məsələlərə dair, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev 11 və 12-ci məsələlərə dair komitələrinin rəylərini təqdim ediblər.

Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Şahin İsmayılov, deputatlar Razi Nurullayev, Nizami Səfərov, Müşfiq Cəfərov, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Mehriban Vəliyeva, Azər Allahverənov, Aydın Mirzəzadə çıxış ediblər, fikirlərini, qeyd və təkliflərini bildiriblər.

Sonra qanun layihələrinin dördü də ayrı-ayrı səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, qanun layihəsi ölkəmizin rəqəmsal inkişaf strategiyasında yeni mərhələnin hüquqi əsaslarını müəyyənləşdirir. Qeyd olunub ki, müasir dövrdə rəqəmsal suverenlik, enerji sistemləri, bank infrastrukturu, elektron hökumət platformaları, dövlət informasiya ehtiyatları, rabitə şəbəkələri, rəqəmsal xidmətlər və vətəndaşların fərdi məlumatları milli təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə elektron hökumət quruculuğu, rəqəmsal xidmətlərin genişləndirilməsi, kibertəhlükəsizlik sisteminin formalaşdırılması və rəqəmsal iqtisadiyyatın inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyi vurğulanıb. Bildirilib ki, Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında qəbul olunan qərarlar yeni rəqəmsal suverenlik siyasətinin sistemli xarakter daşıdığının bariz nümunəsidir.

Nəzərə çatdırılıb ki, qanun layihəsi informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi, informasiya infrastrukturunun kibertəhdidlərdən qorunması, kibertəhlükəsizlik üzrə institusional mexanizmlərin yaradılması və rəqəmsal inkişaf proseslərinin hüquqi əsaslarının müəyyən edilməsi məqsədilə hazırlanıb.

Layihəyə əsasən qanuna informasiya infrastrukturu, informasiya infrastrukturu subyekti, kibertəhlükəsizlik, kiberməkan, kibergigiyena, rəqəmsal dəlil, rəqəmsal tədqiqat, kompüter insidentlərinə qarşı mübarizə mərkəzi (CERT), Təhlükəsizlik əməliyyatları mərkəzi (SOC), Milli CERT, Dövlət CERT və digər yeni anlayışlar əlavə edilir. Sənəddə dövlət orqanlarının, informasiya infrastrukturu subyektlərinin, CERT və SOC-ların kibertəhlükəsizlik sahəsində hüquq və vəzifələri müəyyən edilir, kibertəhdidlərin, kiberhücumların və kiberinsidentlərin aşkarlanması, qarşısının alınması, araşdırılması və aradan qaldırılması üzrə fəaliyyət mexanizmləri təsbit olunur. Həmçinin informasiya infrastrukturunun kibertəhlükəsizliyinin təmin olunması, kibertəhlükəsizlik üzrə monitorinq və auditlərin aparılması, kiberinsidentlər barədə məlumat mübadiləsinin həyata keçirilməsi, rəqəmsal tədqiqatların aparılması, rəqəmsal inkişaf layihələrinin maliyyələşdirilməsi məqsədilə tənzimləyici test mühitinin tətbiqi ilə bağlı müddəalar müəyyən edilir. Bununla yanaşı, informasiya infrastrukturu subyektləri, internet provayderlər, hostprovayderlər və internet informasiya ehtiyatlarının sahibləri üçün kibertəhlükəsizlik sahəsində yeni öhdəliklər müəyyən edilir, Milli CERT-in fəaliyyət istiqamətləri və səlahiyyətləri genişləndirilir.

Məsələnin müzakirəsi zamanı parlamentin komitə sədri Fazil Mustafa, deputatlar Kamal Cəfərov, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Rizvan Nəbiyev, Müşfiq Məmmədli, Sevil Mikayılova çıxış edərək, təklif olunan dəyişikliklərin vacibliyindən danışıblar. Millət vəkilləri rəqəmsallaşmanın dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, iqtisadi inkişafın sürətləndirilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından önəmli olduğunu qeyd ediblər.

Sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Nəzərə çatdırılıb ki, layihə neft-qaz sahəsində fəaliyyəti olmayan özəl sektor təmsilçilərinə ƏDV-nin depozit hesabından dövlət sosial müdafiə fonduna vəsait köçürmək imkanının yaradılması məqsədilə hazırlanıb. Sənədə əsasən, ƏDV-nin depozit hesabından dövlət sosial müdafiə fonduna vəsaitin köçürülə bilməsi 2027-ci il yanvarın 1-dən 4 il müddətinə qüvvədə olacaq və onun şərtləri və qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyən ediləcək.

Qeyd olunub ki, layihə dövlətin fiskal və sosial maraqları ilə sahibkarın maliyyə çevikliyi arasında balanslı yanaşmanı təmin edir. Sənəd vergi ödəyicilərinin ƏDV depozit hesablarında olan vəsaitlərdən istifadə imkanlarının artırılmasına, sosial öhdəliklərin icrası üçün əlavə maliyyə mənbələrinin yaradılmasına, qeyri-neft-qaz özəl sektorda fəaliyyət göstərən vergi ödəyicilərinin dəstəklənməsinə xidmət edəcək.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Sonra komitə sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (birinci oxunuş) mahiyyətindən bəhs edib. Bildirilib ki, qanun layihəsi ölkəyə idxal olunan qeyri-qida istehlak mallarının təhlükəsizlik göstəricilərinə görə texniki reqlamentlərin tələblərinə uyğunluğunu təsdiq edən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri ilə müşayiət olunmasını təmin etməyi nəzərdə tutur.

Layihəyə əsasən, Azərbaycan Respublikasının ərazisinə idxal edilən qeyri-qida istehlak mallarına tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyi təmin edilməklə rəqabət mühiti qorunacaq, yerli istehsal dəstəklənəcək, idxalda texniki reqlamentlərə, yəni insanların həyat və ya sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsinə yönəldilmiş tələblərə cavab verməyən malların ölkəyə daxil olmasının qarşısı alınacaq.

Qeyd edilib ki, ölkədə sahibkarlığın inkişafına və biznes mühitinin dəstəklənməsinə yönəldilmiş dövlət siyasəti prioritetləri nəzərə alınaraq, qeyri-qida istehlak mallarının idxalı ilə məşğul olan təsərrüfat subyektlərinə fəaliyyətlərini yeni qanunvericiliyin tələblərinə uyğunlaşdırılması məqsədilə layihədə iki illik keçid dövrü nəzərdə tutulur.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov daha sonra "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, dəyişikliyə əsasən, qeyri-rezident hüquqi və ya fiziki şəxslər təklifləri ilə birlikdə icra və avans təminatını təqdim etmək öhdəliyindən azad edilmələri barədə əsaslandırılmış müraciətlərini satınalma komissiyasına təqdim edə bilərlər.

Bununla yanaşı, layihədə göstərilir ki, satınalma komissiyası nəzarət orqanının bir mənbədən satınalma metodunun tətbiqinə dair razılığını aldıqdan sonra müraciətlər əsasında, habelə belə müraciətin edilmədiyi hallarda öz təşəbbüsü ilə satınalma müqaviləsinin bağlanılması nəzərdə tutulan qeyri-rezident hüquqi və ya fiziki şəxs tərəfindən icra və avans təminatının ödənilməsinin mümkünsüzlüyünü müəyyən etdikdə, satınalma komissiyasını formalaşdıran satınalan təşkilat 10 iş günü müddətində bununla bağlı əsaslandırılmış müraciətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim edir. Həmin orqan isə 20 iş günü ərzində qeyri-rezident hüquqi və ya fiziki şəxsin icra və avans təminatını təqdim etmək öhdəliyindən azad edilməsi və ya azad edilməsindən imtina olunması barədə qərar qəbul edir. Qərarın qəbul edildiyi tarixdən 12 ay ərzində həmin qeyri-rezident hüquqi və ya fiziki şəxsdən eyni satınalan təşkilat tərəfindən eyni satınalma predmetinin satın alınmasına tələbat yarandıqda, həmin təchizatçıya münasibətdə icra və avans təminatını təqdim etmək öhdəliyindən azad edilmə barədə qərarın qəbul edilməsi tələb olunmur.

Deputat Rəşad Mahmudov məsələ ilə bağlı bəzi qeydlərini açıqladıqdan sonra, qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə məlumat verib. Bildirilib ki, layihədə təklif olunan dəyişikliklər ölkəmizdə sığorta sisteminin inkişafına, sığorta sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə və beynəlxalq normalara uyğunlaşdırılmasına xidmət edir.

Diqqətə çatdırılıb ki, qanunda nəzərdə tutulan dəyişiklikdə könüllü fəaliyyətin iştirakçısı olan könüllülərə münasibətdə sığorta haqqı onlarla bağlanmış müqavilənin qüvvəyə mindiyi, istehsalat təcrübəsi keçən tələbə və şagirdlərə münasibətdə isə istehsalat təcrübəsinin başladığı tarixdən 15 iş günü müddətində ödənilməsi müəyyən edilir.

Bununla yanaşı, layihədə sığorta ödənişlərinin sığorta olunanın əlilliyinin müəyyən edilməsi ilə deyil, peşə əmək qabiliyyətinin itirilməsi dərəcəsinə uyğun olaraq ödənilməsi təklif olunur. Bu dəyişiklik həmçinin Beynəlxalq Əmək Təşkilatının "Əməyin Təhlükəsizliyi və Gigiyenasının Təşviq Edilməsinin Əsasları haqqında" Konvensiyasının tələblərinə uyğundur.

Sənəddə habelə sığorta fondunun sabitliyinin qorunması, sistemin proqnozlaşdırıla bilən olması, çox yüksəkgəlirli şəxslərlə orta gəlirli şəxslər arasındakı ödəniş balansının qorunması məqsədilə birdəfəlik sığorta ödənişinin verilməsi nəzərdə tutulan hallarda hesablanmış sığorta ödənişinin məbləğinin minimum aylıq əməkhaqqının min mislindən artıq olmamaqla təyin edilərək ödənilməsi təklif olunur.

Məsələ barədə deputat Elçin Mirzəbəyli öz fikir və təkliflərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI





## Azərbaycanın rəqəmsal inkişaf strategiyasında yeni mərhələ

**Müasir dövrdə dövlətlərin beynəlxalq rəqabət qabiliyyəti təkcə təbii sərvətlər, coğrafi mövqe və iqtisadi potensialla deyil, həm də rəqəmsal texnologiyaların tətbiqi, innovasiya ekosisteminin inkişafı, süni intellekt imkanlarından səmərəli istifadə və kibertəhlükəsizlik sahəsində formalaşdırılan milli potensialla müəyyən olunur. Qlobal transformasiya prosesləri göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafı artıq seçim deyil, milli təhlükəsizliyin, dayanıqlı iqtisadi inkişafın və effektiv dövlət idarəçiliyinin əsas şərtlərindən biridir.**

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji inkişaf kursu çərçivəsində rəqəmsal transformasiya dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Son illərdə elektron hökumət xidmətlərinin genişləndirilməsi, innovasiya mühitinin formalaşdırılması, rəqəmsal infrastrukturun gücləndirilməsi və süni intellekt texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən ardıcıl islahatlar ölkənin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

2026-cı ildə qəbul edilən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" isə bu siyasətin institusional və hüquqi əsaslarını daha da möhkəmləndirərək rəqəmsallaşma, innovasiya, süni intellekt və kibertəhlükəsizlik istiqamətlərində kompleks islahatların həyata keçirilməsini nəzərdə tutur. Eyni zamanda Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının yaradılması dövlət idarəetməsində vahid koordinasiya mexanizminin formalaşdırılması, strateji qərarların çevik qəbul edilməsi və müxtəlif dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi baxımından mühüm institusional yenilikdir.

Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası çərçivəsində rəqəmsallaşma artıq yalnız informasiya-kommunikasiya texnologiyalarının tətbiqi deyil, dövlət idarəçiliyinin səmərəliyinin artırılması, iqtisadiyyatın şaxələndirilməsi, milli təhlükəsizliyin möhkəmləndirilməsi və insan kapitalının inkişafını özündə birləşdirən kompleks dövlət siyasətinə çevrilib. Məhz bu strateji yanaşmanın davamı olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə iyunun 29-da keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası ölkəmizin rəqəmsal inkişaf gündəliyində yeni mərhələnin başlanğıcı kimi xüsusi əhəmiyyət daşıyır. İlk iclasın gündəliyinə daxil edilən məsələlər ("Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icra vəziyyəti, rəqəmsal inkişaf sahəsində qanunvericilik islahatları və təhsilin rəqəmsallaşdırılması istiqamətində görülən işlər) göstərir ki, dövlət rəqəmsal transformasiyanı vahid strateji idarəetmə modeli çərçivəsində həyata keçirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın iclasda səsləndirdiyi fikirlər dövlət siyasətinin prioritetlərini aydın şəkildə göstərdi. Onun vurğuladığı kimi, 2026-2028-ci illər üzrə Fəaliyyət Planının həyata keçirilməsi şuranın əsas fəaliyyət istiqamətidir. Rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafının vahid platformada əlaqələndirilməsi göstərir ki, Azərbaycan texnoloji inkişafı milli təhlükəsizlik, iqtisadi rəqabət qabiliyyəti və dövlət idarəçiliyinin modernləşdirilməsi ilə sıx əlaqələndirir. Xüsusən süni intellekt sahəsində qəbul ediləcək bütün qərarların milli maraqlar əsasında formalaşdırılmasının vacibliyinin vurğulanması Azərbaycanın rəqəmsal suverenlik konsepsiyasına verdiyi önəmi nümayiş etdirir.

İclasda rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin təqdim etdiyi məlumatlar Fəaliyyət Planının artıq praktiki icra mərhələsinə keçdiyini göstərir. Dövlət qurumları üzrə yol xəritələrinin hazırlanması, Milli Məlumat Hövzəsinin formalaşdırılması, dövlət informasiya sistemlərinin Hökumət Buluduna miqrasiyası, "mygov" platformasının genişləndirilməsi və süni intellekt həllərinin tətbiqi rəqəmsal dövlət modelinin institusional əsaslarını yaradır. Bu təşəbbüslər dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, məlumatların vahid standartlar əsasında idarə olunmasına, analitik qərar qəbuletmə imkanlarının genişlənməsinə və vətəndaş yönümlü idarəetmənin gücləndirilməsinə xidmət edir.

Şuranın iclasında diqqətçəkən əsas istiqamətlərdən biri də rəqəmsal inkişaf sahəsində genişmiqyaslı qanunvericilik islahatlarının hazırlanması oldu. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümovun təqdim etdiyi yanaşma göstərir ki, rəqəmsal transformasiya yalnız texnoloji yeniliklərlə məhdudlaşmır, həm də müasir hüquqi bazanın formalaşdırılmasını tələb edir. İnnovasiya, süni intellekt, vençur kapitalı, rəqəmsal iqtisadiyyat və kibertəhlükəsizlik sahələrində beynəlxalq təcrübəyə uyğun hüquqi mexanizmlərin yaradılması Azərbaycanın qlobal texnologiya bazarına inteqrasiyasını sürətləndirəcək və ölkənin investisiya cəlbediciliyini daha da artıracaq.

İclasın digər mühüm istiqaməti təhsilin rəqəmsal transformasiyası oldu. Elm və təhsil naziri Emin Əmrullayev tərəfindən təqdim edilən məlumatlar göstərir ki, rəqəmsal inkişaf strategiyası yalnız texnoloji infrastruktura deyil, eyni zamanda insan kapitalının inkişafına söykənir. "Rəqəmsal məktəb", "Rəqəmsal bacarıqlar" və "STEAM Azərbaycan" layihələrinin genişləndirilməsi gələcək əmək bazarının tələblərinə cavab verən mütəxəssislərin hazırlanmasına xidmət edir. Bu isə uzunmüddətli perspektivdə Azərbaycanın innovasiya iqtisadiyyatının dayanıqlı inkişafını təmin edən əsas amillərdən biri hesab olunur.

Ümumilikdə Rəqəmsal İnkişaf Şurasının ilk iclasından çıxan nəticə bu oldu ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş rəqəmsal inkişaf strategiyası artıq institusional və praktiki icra mərhələsinə daxil olub. Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə şuranın fəaliyyətə başlaması müxtəlif dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, strateji layihələrin operativ icrası və vahid dövlət siyasətinin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal İnkişaf Şurasının ilk iclasında təqdim olunan hesabatlara görə, "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" artıq konseptual sənəd olmaqdan çıxaraq praktiki icra mərhələsinə qədəm qoyub. Burada diqqətçəkən əsas məqam dövlət xidmətlərinin, sadəcə, elektronlaşdırılması deyil, onların vahid idarəetmə modeli əsasında inteqrasiyası və vətəndaş mərkəzli xidmət sisteminin formalaşdırılmasıdır.

Bu kontekstdə "mygov" və "mygov Biznes" platformalarının inkişafı strateji əhəmiyyət daşıyır. Uzun illər müxtəlif dövlət qurumlarının ayrıca informasiya sistemləri və mobil tətbiqlər vasitəsilə təqdim etdiyi xidmətlərin vahid platformada birləşdirilməsi həm dövlət idarəçiliyində koordinasiyanı gücləndirəcək, həm də vətəndaşlar və sahibkarlar üçün daha rahat, operativ və şəffaf xidmət mühiti yaradacaq. Bu yanaşma beynəlxalq praktikada "vahid rəqəmsal hökumət" (One Government Platform) modelinin tətbiqidir.

Şurada səsləndirilən məlumatlardan aydın oldu ki, artıq "e-Sosial", "e-Təbib", "e-Su" kimi mühüm dövlət xidmətləri "mygov" platformasına inteqrasiya olunub, digər xidmətlərin də mərhələli şəkildə bu ekosistemə daxil edilməsi nəzərdə tutulur. Bunun nəticəsində dövlət xidmətlərinə çıxış sadələşəcək, vətəndaşların müxtəlif platformalar arasında seçim etmək məcburiyyəti aradan qalxacaq və rəqəmsal xidmətlərin əlçatanlığı əhəmiyyətli dərəcədə artacaq.

Fəaliyyət Planının diqqətçəkən istiqamətlərindən biri proaktiv dövlət xidmətləri modelinin genişləndirilməsidir. Bu model dövlət idarəçiliyində ən müasir yanaşmalardan biri hesab olunur. Əgər ənənəvi idarəetmə modelində vətəndaş xidmət almaq üçün dövlət qurumuna müraciət edirdisə, yeni modeldə dövlət mövcud məlumat bazaları və rəqəmsal texnologiyalar vasitəsilə vətəndaşın hüququ yarandığı anda xidməti avtomatik şəkildə təqdim edir.

Yaşa görə əmək pensiyasının avtomatik təyin edilməsi, doğum üzrə birdəfəlik müavinətin proaktiv qaydada ödənilməsi, şəxsiyyət vəsiqəsi, pasport və sürücülük vəsiqəsinin etibarlılıq müddəti ilə bağlı avtomatik bildirişlərin göndərilməsi, səfərbərlik üzrə tibbi müayinəyə çağırışların rəqəmsal formada həyata keçirilməsi məhz bu yeni idarəetmə fəlsəfəsinin praktik nümunələridir.

Bu yanaşma bir tərəfdən vətəndaş məmnuniyyətini artırır, digər tərəfdən dövlət aparatının inzibati yükünü azaldır, bürokratik prosedurları minimuma endirir və korrupsiya risklərinin azalmasına xidmət edir. Məhz buna görə də proaktiv xidmətlərin payının 50 faizə çatdırılması hədəfi rəqəmsal transformasiyanın əsas göstəricilərindən biri hesab olunur.

Rəqəmsal İnkişaf Şurasının iclasında xüsusi diqqət yetirilən istiqamətlərdən biri də Milli Məlumat Hövzəsinin (Data Lake) yaradılması oldu. Müasir dövrdə məlumatlar strateji resurs hesab olunur və dövlətlərin rəqabət qabiliyyəti onların məlumatları necə idarə etməsindən birbaşa asılıdır.

Azərbaycanda müxtəlif dövlət qurumlarında toplanan məlumatların vahid platformada birləşdirilməsi dövlət idarəçiliyində analitik imkanları əhəmiyyətli dərəcədə genişləndirəcək. Bu sistem süni intellekt alqoritmlərinin tətbiqi ilə vətəndaşların ehtiyaclarını əvvəlcədən müəyyən etməyə, fərdiləşdirilmiş xidmətlər göstərməyə və dövlət qərarlarının daha dəqiq məlumatlar əsasında qəbul edilməsinə imkan verəcək. Əslində, Milli Məlumat Hövzəsi gələcəkdə rəqəmsal hökumətin intellektual əsasını təşkil edəcək və süni intellekt həllərinin geniş tətbiqinə texnoloji baza yaradacaq.

Şurada təqdim olunan məlumatlar göstərir ki, innovasiya sahəsində hazırlanmış qanunvericilik paketi Azərbaycanın texnoloji inkişaf tarixində ən genişmiqyaslı hüquqi islahatlardan biridir. Onlarca qanunvericilik aktına dəyişiklikləri nəzərdə tutan bu paket innovasiya ekosisteminin bütün əsas elementlərini - vençur maliyyələşdirilməsini, texnologiya transferini, startap fəaliyyətini, süni intellekti, rəqəmsal iqtisadiyyatı və frilanser fəaliyyətini əhatə edir.

Xüsusilə vençur kapitalı fondlarının hüquqi statusunun müəyyənləşdirilməsi, SAFE və Convertible Note kimi beynəlxalq investisiya alətlərinin tətbiqi, ESOP mexanizminin qanuniləşdirilməsi, "Digital Nomad" vizasının tətbiqi və uzunmüddətli vergi güzəştlərinin nəzərdə tutulması Azərbaycanın regional innovasiya mərkəzinə çevrilməsi istiqamətində atılan sistemli addımlardır.

Rəqəmsal İnkişaf Şurasının ilk iclası bir daha nümayiş etdirdi ki, Azərbaycanda rəqəmsal transformasiya artıq ayrı-ayrı layihələr səviyyəsindən çıxaraq dövlət idarəçiliyinin strateji istiqamətinə çevrilib. Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf kursuna uyğun olaraq Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyət göstərən şura müxtəlif dövlət qurumlarının fəaliyyətini vahid məqsəd ətrafında əlaqələndirən ali koordinasiya platforması funksiyasını yerinə yetirir. Bütün bunlardan çıxış edərək demək olar ki, qarşıdakı illərdə rəqəmsallaşma, süni intellekt, innovasiya, kibertəhlükəsizlik və insan kapitalının inkişafı üzrə həyata keçiriləcək islahatlar Azərbaycanın iqtisadi rəqabət qabiliyyətini artırmaqla yanaşı, ölkənin milli rəqəmsal suverenliyini gücləndirəcək və onu Cənubi Qafqazın aparıcı texnologiya və innovasiya mərkəzinə çevirmək məqsədinə xidmət edəcək.

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini*

## Data suverenliyi rəqəmsal inkişafın əsas komponentidir

**Rəqəmsal transformasiyalar, data ekosistemin formalaşdırılması və süni intellekt texnologiyalarının tətbiqi dövlətin kibersuverenliyinin təmin edilməsi baxımından yeni çağırışlar və risklər yaradır. Beynəlxalq təcrübəyə nəzər saldıqda aydın olur ki, dövlətin kibersuverenliyinin təmin olunmasına dair fərqli yanaşmalar mövcuddur. Bu yanaşmalar əsasən texnoloji, infrastruktur, dataların idarə olunması və geosiyasi təsirlərin nəzərə alınması kimi komponentləri əhatə edir.**

Kibersuverenlik dövlətin rəqəmsal infrastrukturunu, data və informasiya axınlarını müstəqil olaraq müəyyən və idarə etmək imkanına malik olmasıdır. Başqa sözlə, kibersuverenlik dövlətin rəqəmsal resurslarına, o cümlədən, data, infrastruktur və proqram təminatına nəzarət etmək imkanlarının olması ilə ifadə olunur. Bu baxımdan, rəqəmsallaşma, rəqəmsal ekosistemin formalaşdırılması kibersuverenliyinin təmin olunması baxımından yeni təhdidlər yaradır. Aparılan tədqiqatlar göstərir ki, rəqəmsal ekosistemin yaradılması ilə bağlı risklərin, kibertəhdidlərin artması "data suverenliyi", "dövlətin İKT infrastrukturuna nəzarət suverenliyi", "platforma kimi dövlət" və s. konsepsiyaların işlənməsini zəruri etmişdir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı və kibertəhdidlərin artması şəraitində milli maraqların kibermәkanda qorunması məsələsi getdikcə daha da aktuallaşır. Data suverenliyi milli təhlükəsizliyin əsas elementlərindən birinə çevrilir. Dövlətlər data suverenliyinin təmin olunması üçün müxtəlif strategiyalar hazırlayırlar.

Ölkəmizdə rəqəmsal inkişafın sürətləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir və hazırda dayanıqlı rəqəmsal arxitekturanın formalaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilməkdədir. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilmişdir və verilən tapşırıqlara əsasən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənmişdir. Rəqəmsal inkişaf üzrə fəaliyyət planına əsasən növbəti üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret yol xəritəsi müəyyən olunmuşdur.

İyunun 29-da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında rəqəmsal ekosistemin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılması istiqamətində görülən işlər müzakirə olunmuşdur. Rəqəmsal İnkişaf Şurasının əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirmək, bütün dövlət qurumları ilə səmərəli işin təşkili, vahid yanaşma formalaşdırmaq və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin təmin olunmasıdır. Məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevirməkdir. Bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi, uğurlu modellərin tətbiqi Azərbaycanın milli maraqlarının kibermәkanda qorunmasına, data suverenliyinin və kibertəhlükəsizliyin təmin olunmasına imkan verəcəkdir.

Kibersuverenlik bir dövlətin məlumatlarını, infrastrukturunu və rəqəmsal resurslarını, xüsusilə də xarici təsirdən, kibertəhdidlərdən və xarici nəzarətdən qorumaq, tənzimləmək və idarə etmək bacarığını ifadə edir. Beynəlxalq təcrübədə kibersuverenliyin təmin edilməsi məqsədilə təklif olunan arxitekturalara əsasən milli informasiya infrastrukturunun qorunması, məlumatların lokallaşdırılması, şəbəkə üzərində nəzarətin gücləndirilməsi və kibertəhlükəsizliyin artırılması kimi istiqamətləri əhatə edir. Bununla yanaşı, belə modellərin tətbiqi qlobal internetin açıq və sərhədsiz təbiəti ilə müəyyən ziddiyyətlər yaradır və beynəlxalq əməkdaşlığın əhəmiyyətini daha da ön plana çıxarır. Təklif olunan arxitekturalar, konseptual modellər əsasən rəqəmsal ekosistemin yaradılması, dataların idarə olunması, kibertəhlükəsizlik kimi aspektləri əhatə edir.

İlk növbədə, birinci səviyyə - infrastruktur səviyyəsi ölkənin rəqəmsallaşması, rəqəmsal dünyada müstəqil və dayanıqlı inkişaf üçün lazım olan texnoloji infrastrukturu əks etdirir. Bu səviyyəyə yeni texnologiyaların, telekommunikasiya infrastrukturlarının inkişafı və kibertəhlükəsizliklə bağlı indikatorlar daxildir. Belə bir səviyyə ölkələrin texnoloji infrastrukturunu inkişaf etdirmək, yerli bazarı gücləndirmək və strateji müttəfiqlik qurmaqla digər ölkələrdən asılılığı minimuma endirməyi hədəfləyir.

İkinci səviyyə - idarəetmə səviyyəsi bir region üzərində suverenliyin təmin edilməsi üçün hüquqi və institutsional mexanizmləri nəzərə almalıdır. Buraya tənzimləyici tədbirlər, eləcə də, informasiya texnologiyalarının inkişafına yönəlmiş siyasətin formalaşdırılması və strategiyaların hazırlanması daxildir. Bu səviyyə rəqəmsal ekosistemin idarə olunması, nəzarətdə saxlanması üçün institusional potensialı əks etdirir. Başqa sözlə, dövlət strukturlarının rəqəmsal ekosistemini idarə etmək, hüquqi tənzimləmə və nəzarət etmək gücü nəzərdə tutulur.

Nəhayət, üçüncü səviyyə - sosial suverenlik səviyyəsi vətəndaşların rəqəmsal texnologiyalardan necə istifadə etdikləri və onlara necə çıxış əldə etdiklərini əks etdirir. Bu göstəricilərə hər bir regionda internet istifadəçilərinin səviyyəsini göstərən rəqəmsal bacarıqlar və əlçatanlıq kimi amillər aid edilir. Qeyd olunan infrastruktur, idarəetmə və sosial səviyyələr bir-biri ilə bağlıdır və bu səviyyələr birləşərək ölkənin ümumarxitektur suverenlik ekosistemini formalaşdırır.

Hazırda kibersuverenlik konsepsiyasının reallaşdırılması mürəkkəb və çoxsahəli xarakter daşıyır və əksər ölkələr üçün onun tam şəkildə reallaşdırılması yaxın perspektivdə mümkün görünmür. Bu mənada rəqəmsal ekosistemin formalaşdırılması, data suverenliyinin təmin olunması dövlətlər üçün aktual məsələlərdən biri olaraq qalmaqdadır. Data suverenliyi, milli data ekosisteminin yaradılması və kibertəhlükəsizliyin təmin olunması baxımından bəzi dövlətlərin telekommunikasiya avadanlıqlarının, rəqəmsal platformaların istifadəsinə məhdudiyyət qoyulması ilkin addım hesab olunsa da, bu həll yolu sayıla bilməz. Nəzərə almaq lazımdır ki, azad bazar iqtisadiyyatının formalaşdırılması son dərəcə vacibdir və rəqəmsal platformalar üzərində ciddi nəzarət və onların fəaliyyətinə qoyulan məhdudiyyətlər də tamamilə düzgün yanaşma hesab oluna bilməz. Bu sahədə uğur əldə etmək üçün ölkələr davamlı investisiya, innovasiya və hüquqi tənzimləmə ilə yerli texnologiya şirkətlərin dəstəklənməsinə nail olmalıdırlar. Texnoloji monopoliyanı aradan qaldırmaq üçün tərəflərə bərabər imkanlar yaradılmalıdır. Bu isə beynəlxalq əməkdaşlıq və texnologiya transferinin daha ədalətli və davamlı əsaslar üzərində qurulmasına imkan verər.

*Fərhad YUSİFOV,*
*Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent*



İki il öncə Prezident Aleksand Lukaşenko Şuşa şəhərinə səfər etmişdir, tikinti-quruculuq işləri ilə tanış olmuşdur. İşğal dövründə ermənilər tərəfindən Xurşidbanu Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri ziyarət edilmişdir. Bu səfər Belarus şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq işlərində iştirakı baxımından mühüm strateji əhəmiyyət daşımışdır. Həmin səfər çərçivəsində cənab Lukaşenko Azərbaycan və onun Lideri haqqında xoş sözlər söyləmişdir. Regionda Azərbaycanın timsalında olduqca güclü, normal, lider ölkənin mövcudluğunu bildirən Belarus Prezidenti azərbaycanlı həmkarına xitabən söylədiyi "Siz regionu nəzarətdə saxlamağa qadir və bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, zaman Sizi seçib, Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız" fikirləri Prezident İlham Əliyevin beynəlxalq miqyasda yüksək nüfuzlu lider imicinin daha bir təsdiqi olmuşdur.

Bu gün Azərbaycan və Belarus münasibətlərinin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, əməkdaşlıq formal diplomatik münasibətlərdən daha irəli gedərək real iqtisadi layihələr və konkret nəticələrlə müşayiət olunur.

### Çoxsahəli əlaqələr və qarşılıqlı təcrübə

Azərbaycan və Belarus iqtisadiyyatlarının bir-birini tamamlayan xüsusiyyətləri əməkdaşlığın davamlı inkişafına əlverişli şərait yaradır. Belarus uzun illərdir maşınqayırma və ağır sənaye üzrə mühüm istehsal mərkəzlərindən biri hesab olunur. Azərbaycan isə enerji sektoru, nəqliyyat-logistika imkanları, sənaye parkları və əlverişli investisiya mühiti ilə seçilir. Bu üstünlüklərin birləşdirilməsi iki ölkənin iqtisadi əməkdaşlığını keyfiyyətcə yeni mərhələyə çıxarıb.

Azərbaycan Belarusa əsasən neft və neft məhsulları, kimya sənayesi məhsulları və müxtəlif növ xammal ixrac edir. Belarus isə Azərbaycana yük avtomobilləri, traktorlar, kənd təsərrüfatı texnikası, lift avadanlıqları, tikinti maşınları, müxtəlif sənaye məhsulları göndərir. Bu ticarət əlaqələri hər iki ölkənin iqtisadiyyatında mühüm rol oynayır.

İkitərəfli münasibətlərin ən uğurlu istiqamətlərindən biri də sənaye kooperasiyasıdır. Azərbaycan ərazisində Belarus texnologiyaları əsasında traktorların, yük avtomobillərinin və müxtəlif xüsusi təyinatlı texnikaların yığılması həyata keçirilir. Bu layihələr yerli istehsalın genişləndirilməsi, idxaldan asılılığın azaldılması, yeni iş yerlərinin yaradılması, texnologiyaların transferi, ixrac potensialının artırılması və s. kimi bir sıra mühüm məqsədlərə xidmət edir. Belə layihələr Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi siyasəti ilə tam uyğunluq yaradır.

Məlumdur ki, Belarus MDB məkanında ən inkişaf etmiş kənd təsərrüfatı texnologiyalarına malik ölkələrdəndir. Azərbaycan isə son illərdə aqrar sektorun modernləşdirilməsini dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirib. Bu baxımdan Belarus təcrübəsi ölkəmiz üçün böyük maraq doğurur. Əməkdaşlıq südçülük, heyvandarlıq, seleksiya, aqrar elmin inkişafı, kənd təsərrüfatı texnikasının tətbiqi və aqroparkların yaradılması kimi istiqamətləri əhatə edir.

Azərbaycanın Avropanın mühüm enerji təminatçılarından birinə çevrilməsi Belarus üçün də əlavə əməkdaşlıq imkanları yaratmaqdadır. Müxtəlif dövrlərdə Azərbaycan Belarusa xam neft tədarük etməklə onun enerji təhlükəsizliyinin şaxələndirilməsinə töhfə verib və bu töhfələr hazırda da davam etdirilir. Bu əməkdaşlıq göstərir ki, enerji yalnız iqtisadi yox, həm də strateji tərəfdaşlığın mühüm elementidir.

Azərbaycanla Belarus müdafiə sənayesi sahəsində də uğurlu əməkdaşlıq həyata keçirirlər. Bura hərbi texnikanın modernləşdirilməsi, texniki xidmət, müdafiə sənayesi məhsullarının istehsalı və mütəxəssis hazırlığı daxildir. Bu istiqamətdə əməkdaşlıq hər iki ölkənin müdafiə potensialının gücləndirilməsinə xidmət göstərir.

Həmçinin humanitar münasibətlər də xalqları yaxınlaşdırır. Dövlətlərarası münasibətlərin uzunömürlü olması üçün xalqlar arasında qarşılıqlı anlaşma xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və Belarus arasında təhsil, elm, mədəniyyət, səhiyyə, turizm və idman sahələrində əməkdaşlıq ildən-ilə genişlənir. Universitetlər arasında əlaqələr, tələbə mübadiləsi proqramları, mədəniyyət günləri, incəsənət festivalları və elmi konfranslar iki xalqın daha yaxından tanış olmasına imkan yaradır. Bakı və Minskdə mütəmadi qarşılıqlı mədəniyyət və kino günləri təşkil olunur. Bu ölkədə 7 min azərbaycanlı yaşayır və onlar ictimai-siyasi həyatda fəal iştirak edir.

Belarusun 10 regionu ilə Azərbaycanın, xüsusən Qomel və Gəncə, Magilyov və Sumqayıt, Qrodno və Qəbələ şəhərlərinin yaxın regionları arasında qardaşlaşmış şəhər və tərəfdaşlıq əlaqələri qurulub. Bakı ilə Minsk arasında qardaş şəhər əlaqələrinin yaradılması haqqında imzalanan memorandum isə iki ölkə arasında münasibətlərin inkişafında xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanla Belarus beynəlxalq təşkilatlarda da konstruktiv əməkdaşlıq nümayiş etdirirlər. BMT, ATƏT, MDB və digər beynəlxalq platformalarda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə qarışmamaq prinsiplərinin müdafiəsi hər iki ölkənin xarici siyasətində mühüm yer tutur. Bu ortaq yanaşma beynəlxalq münasibətlərdə qarşılıqlı etimadı daha da möhkəmləndirir və iki ölkəni bir-birinə yaxınlaşdırır.

### Yeni geosiyasi şərait, yeni imkanlar

Müasir dünyamızda iqtisadi və siyasi proseslər sürətlə dəyişməkdədir. Rəqəmsallaşma, "yaşıl enerji", süni intellekt, logistika marşrutlarının yenidən formalaşması və qlobal tədarük zəncirlərinin transformasiyası Azərbaycan-Belarus əməkdaşlığı üçün də yeni perspektivlər açır. Azərbaycanın Orta dəhliz boyunca artan tranzit rolu, beynəlxalq nəqliyyat-logistika layihələrində fəal iştirakı və Qarabağla Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq proqramları Belarus şirkətləri üçün yeni əməkdaşlıq imkanları açır. Eyni zamanda Belarusun sənaye, maşınqayırma, aqrar texnologiyalar və yüksək texnoloji istehsal sahəsindəki təcrübəsi Azərbaycanın iqtisadi inkişaf strategiyası ilə üst-üstə düşür.

30 ildən artıq davam edən inkişaf yolu göstərir ki, Azərbaycan-Belarus münasibətləri təsadüfi siyasi yaxınlaşmanın yox, düşünülmüş dövlət siyasətinin, qarşılıqlı etimadın və milli maraqların üzərində qurulmuş strateji tərəfdaşlığın məhsuludur. Bu münasibətlərin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə isə keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Hazırda iki ölkə arasında formalaşmış əməkdaşlıq modeli postsovet məkanında ən sabit, praqmatik və səmərəli ikitərəfli münasibətlərdəndir.

Qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi bir dövrdə Azərbaycan və Belarus arasında qarşılıqlı etimada söykənən siyasi dialoq, iqtisadi inteqrasiya, sənaye kooperasiyası və humanitar əməkdaşlığın daha da dərinləşməsi hər iki dövlətin milli maraqlarına xidmət etməklə yanaşı, Avrasiya məkanında sabitliyin və qarşılıqlı faydalı tərəfdaşlığın möhkəmlənməsinə də mühüm töhfə verməyə davam edəcəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ermənistanın konstitusiya imtahanı

## İrəvan tarixi xülyalardan real regional siyasətə keçidi hüquqi müstəvidə təmin edə biləcəkmi

**Nikol Paşinyanın Konstitusiya Günü münasibətilə etdiyi müraciət onun yeni Əsas Qanunun qəbulu məsələsində olduqca israrlı olduğunu növbəti dəfə təsdiqləyir. Baş nazir bu islahatı Ermənistanın suverenliyi, dövlət institutlarının gücləndirilməsi və gələcək inkişafı üçün qaçılmaz bir zərurət kimi təqdim edir. Onun yanaşmasına görə, müstəqillikdən bəri mövcud olan hüquqi qaydalar vətəndaşların real iradəsindən qaynaqlanmadığı üçün dövlətlə xalq arasında üzvi bağ qopub və hazırkı sistem yaranmış fundamental problemləri həll etmək iqtidarında deyil.**

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** deyir ki, daxili idarəçilik arqumentləri ilə yanaşı, bu islahat həm də Azərbaycanla aparılan sülh prosesinin ən mühüm şərtlərindən biri olduğundan Paşinyan regional təhlükəsizliyi təmin etmək və yekun sülhə nail olmaq üçün bu addımı atmağa siyasi baxımdan məcburdur: "2026-cı ilin mart ayında layihənin tamamlandığı elan edilsə də, onun dərci və icrasındakı gecikmələr hakimiyyətin hələ ehtiyatlı davrandığını göstərir. Erməni cəmiyyətinin bu dəyişikliyə gedib-getməyəcəyi və prosesi dəstəkləyəcəyi isə kəskin qütbləşmə səbəbindən sual altındadır. Cəmiyyətin bir hissəsi və müxalifət qüvvələri bu addımı daxili zərurət deyil, xarici təzyiqlərin nəticəsi və milli kimlikdən imtina kimi qəbul edərək ciddi müqavimət göstərir. Sıravi vətəndaşlar arasında belə bir qorxu var ki, konstitusiyanın dəyişdirilməsi sülh gətirməyəcək, əksinə, ölkənin mövqelərini daha da zəiflədəcək.



Bu psixoloji baryer xalqın dəyişikliyə asanlıqla "hə" deməsinə mane olur. Digər tərəfdən, uzun illər davam edən münaqişələrdən yorulan, təhlükəsizlik, sabitlik və normal iqtisadi rifah axtarışında olan praqmatik kütlə keçmiş xülyalardan imtina edib reallıqla barışmağa meyillidir. Konstitusiyanın qəbulu mütləq şəkildə referendum tələb etdiyi üçün erməni cəmiyyətinin dəyişikliyə "hə" deməsi Paşinyan hakimiyyətinin xalqı bu islahatın yeni bir müharibənin qarşısını alacağına inandırmasından asılı olacaq. Nəticə etibarilə, erməni cəmiyyəti üçün bu dəyişiklik tarixi stereotiplərlə coğrafi reallıqlar arasında ağrılı, lakin dövlət olaraq sağ qalmaq üçün qaçılmaz bir seçim mərhələsidir".

Həmsöhbətimiz qeyd edib ki, Ermənistanda konstitusiya dəyişikliyi, sadəcə, hüquqi islahat deyil, ölkənin geosiyasi mövcudluq və milli ideologiya sınağıdır: "Göründüyü kimi, bu proses Ermənistanın Cənubi Qafqazın real coğrafi və siyasi şərtlərinə uyğunlaşması, keçmişin revanşist ideyalarından təmizlənməsi və dinc qonşuluq müstəvisinə keçidi mərhələsidir. Paşinyan hakimiyyəti üçün bu addım regional təcriddən qurtulmaq və dövlətin gələcək varlığını sığortalamaq üçün yeganə çıxış yoludur. Erməni cəmiyyətinin bu prosesə verəcəyi yekun qərar onun kollektiv şüurunun nə dərəcədə transformasiyaya uğradığını göstərəcək. Xalq ya tarixi xülyaların və mühafizəkar qorxuların girovuna çevrilərək islahatlara müqavimət göstərəcək, ya da praqmatik təhlükəsizlik və iqtisadi rifah naminə bu ağrılı keçidi qəbul edəcək. O üzdən referendum təkcə yeni bir sənədin səsverməsi deyil, Ermənistanın gələcəkdə hansı regional kimliklə yaşayacağına dair tarixi bir seçim olacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# *Rumıniya nəşri:* Aİ-ABŞ enerji sazişi ilk ciddi sınaqla üzləşib, Azərbaycanla enerji əməkdaşlığının əhəmiyyəti artıb

**Rumıniyanın "Ştiripesurse" nəşri yazır ki, bir il əvvəl Avropa İttifaqı (Aİ) ilə ABŞ arasında imzalanmış enerji sazişi ilk ciddi sınağı ilə üzləşib. Nəşrin məlumatına görə, Avropa İttifaqının ABŞ-dən böyük həcmdə mayeləşdirilmiş təbii qaz (LNG) idxalını artırmaq planları qlobal bazardakı qiymət dəyişiklikləri və kommersiya maraqları səbəbindən gözlənilən tempdə həyata keçirilmir.**




AZƏRTAC xəbər verir ki, məqalədə sazişin Avropa İttifaqının qarşıdakı üç il ərzində ABŞ-dən təxminən 750 milyard dollar dəyərində enerji məhsulları almasını və bununla da Rusiya enerji resurslarından asılılığını daha da azaltmasını nəzərdə tutduğu qeyd olunur. Lakin son aylarda ABŞ-dən ixrac olunan LNG-nin əhəmiyyətli hissəsi Avropa əvəzinə daha yüksək qiymət təklif edən Asiya bazarlarına yönəldilib.

"Ştiripesurse" yazır ki, bu vəziyyət enerji bazarında iqtisadi amillərin siyasi razılaşmalardan üstün olduğunu göstərir. ABŞ şirkətləri kommersiya baxımından daha sərfəli bazarlara üstünlük verdikləri üçün Avropaya qaz tədarükünün həcmi azalır. Bu isə Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının qarşısında yeni çağırışlar yaradır.

Nəşr qeyd edir ki, yaranmış vəziyyət Avropa üçün enerji mənbələrinin və marşrutlarının daha da şaxələndirilməsinin vacibliyini bir daha gündəmə gətirir. Bu kontekstdə Azərbaycan Avropa İttifaqının etibarlı enerji tərəfdaşlarından biri kimi xüsusi əhəmiyyət daşıyır.

Məqalədə Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunun nümayəndəsi Kristina Lobilyo Borreronun fikirlərinə istinad olunur. O bildirib ki, Avropa İttifaqı üçün Azərbaycanla enerji əməkdaşlığı strateji əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, 2021-ci ildən etibarən Avropa İttifaqının Azərbaycandan təbii qaz idxalı 40 faizdən çox artıb və bu artım "Cənub qaz dəhlizi"nin Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində oynadığı mühüm rolu bir daha təsdiqləyir.

"Ştiripesurse" yazır ki, Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı yalnız təbii qaz sahəsi ilə məhdudlaşdırmır. Brüssel Xəzər dənizi-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizi layihəsini də gələcəyin strateji enerji bağlantılarından biri hesab edir. Nəşrin qeyd etdiyi kimi, bərpaolunan enerji, elektrik interkonnektorları və yeni enerji infrastrukturunun yaradılması Aİ-Azərbaycan tərəfdaşlığının əsas istiqamətlərindən birinə çevrilib.

Məqalədə vurğulanır ki, Avropa Komissiyası Azərbaycanın enerji sahəsində etibarlı tərəfdaş kimi yüksək əməliyyat standartlarına, sabit tədarük imkanlarına və uzunmüddətli əməkdaşlığa sadiqliyini xüsusi qiymətləndirir. Eyni zamanda metan emissiyalarının azaldılması, enerji səmərəliliyinin artırılması və dayanıqlı enerji keçidinin təmin olunması da əməkdaşlığın mühüm istiqamətləri kimi göstərilir.

Nəşrin qənaətinə görə, Aİ-ABŞ enerji sazişi transatlantik əməkdaşlıq baxımından strateji əhəmiyyətini qoruyub saxlasa da, qlobal enerji bazarındakı dəyişikliklər Avropanın yalnız bir mənbədən asılı qala bilməyəcəyini göstərir. Bu baxımdan Azərbaycan və Xəzər regionu Avropa İttifaqının enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi siyasətində mühüm yer tutmağa davam edir.



# Dünya Çempionatı -2026



## İnfantino Trampla danışdığını təsdiqlədi



**FIFA dünya çempionatının 1/8 final oyunundan əvvəl ABŞ millisinin hücumçusu Folarin Baloqunun diskvalifikasiyasını ləğv edərkən tamamilə müstəqil qərar qəbul edib. Bu barədə FIFA prezidenti Canni İnfantino bəyan edib.**

Turnirdə ABŞ yığmasının ən yaxşı bombardiri olan Baloqun bosniyalılarla keçirilən matçda meydandan qovulmuşdu və Belçika ilə 1/8 final qarşılaşmasını buraxmalı idi. Lakin FIFA-nın İntizam Komitəsi birillik sınaq müddəti təyin edərək onu oyuna buraxıb.

"FIFA-nın məhkəmə orqanları müstəqildir. Onlar İntizam Məcəlləsini tətbiq edir və işlərlə bağlı qərarları qüvvədə olan reqlamentlər, eləcə də ixtiyarlarında olan xüsusi hallar əsasında qəbul edirlər", - deyə İnfantino bildirib.

"Mən ABŞ Prezidenti ilə dünya çempionatı məsələlərini mütəmadi müzakirə edirəm. Bu mövzuda da Donald Tramp mənə zəng etmişdi, necə ki, dünyanın hər yerindən dövlət başçıları, hökumət rəsmiləri, futbol ictimaiyyətinin nümayəndələri və biznes rəhbərləri ən müxtəlif məsələlərlə bağlı mənə zəng edirlər". İnfantinonun sözlərinə görə, söhbət zamanı o, FIFA-nın müstəqil məhkəmə orqanlarının iştirakı ilə hüquqi prosesin getdiyini və işə müvafiq qurumlar tərəfindən müəyyən edilmiş qaydada baxılacağını izah edib.

FIFA rəhbəri İntizam Komitəsinin qərarlarını qəbul olunduqdan sonra oxuduğunu da qeyd edib: "Bəzən bu qərarlar məni təəccübləndirir. Bəzən onlarla razılaşıram, bəzən isə yox. Lakin mən bu qərarlara hər zaman hörmət edirəm. Hansısa qərarın şəxsən bizim xoşumuza gəlib-gəlməməsinin heç bir əhəmiyyəti yoxdur".

## Ronaldo yığmadakı gələcəyi barədə açıqlama verdi



**Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldo yığmadakı gələcəyi haqda danışıb. 41 yaşlı forvard gələcəyi ilə bağlı qərar qəbul etməyə tələsmədiyini bildirib.**

DÇ-2026-da mübarizəni dayandırdıqdan sonra danışan təcrübəli hücumçu hazırda diqqətin özünə yox, komandanın çıxışına yönəlməli olduğunu deyib: "Tələsik qərarlar vermirəm və diqqəti komandanın bu dünya çempionatında gördüyü işdən şəxsi qərarlarıma yönəltmək istəmirəm".

Bu mundial Ronaldo üçün karyerasında 6-cı dünya çempionatı idi. O, həmin 6 turnirdə keçirdiyi 27 oyunda 11 qol vurub, 2 məhsuldar ötürmə edib.

**FİFA 2026-cı il dünya çempionatının final matçında istifadə olunacaq rəsmi "Trionda Final" topunu təqdim edib.**

**Yeni top texniki xüsusiyyətlərinə görə hazırda istifadə olunan "Trionda" modeli ilə eyni olsa da, qara-qızılı naxışlar, qırmızı detallar və mundiala evsahibliyi edən şəhərlərin adlarının həkk olunduğu xüsusi dizaynı ilə seçilir.**



## Mundialın final topu təqdim edildi

## Mbappe yenə tənqid olundu



**Paraqvaylı senator Seleste Amarilla Fransa millisinin ulduz futbolçusu Kilian Mbappeni növbəti dəfə sərt tənqid edib.**

O, "X" sosial hesabındakı paylaşımında qeyd edib: "Təkəbbürünüz və ikrahınız oyundan əvvəl belə, məni qıcıqlandırdı. "Əlimizi zibilə soxmalı olsaq, edəcəyik" dediniz. Biz axmaq deyilik. "Zibil" dedikdə Paraqvay milli komandasını və ümumiyyətlə paraqvaylıları nəzərdə tutduğunuzu çox yaxşı başa düşürdük. Sonra isə "makiyajlarını siləcəklərini" dediniz. Həmçinin sizin makiyajlı, zərif olduğunuzu və bizim makiyajın nə olduğunu belə bilməyən kasıb, kobud insanlar olduğumuzu başa düşdük. Bütün Paraqvay, o cümlədən mən də bunu belə qəbul etdik".

Xatırladaq ki, Amarilla daha əvvəl DÇ-2026-nın 1/8 final mərhələsində Mbappenin Paraqvay millisinin qapıçısı Orlando Gil ilə oyundan sonra əl sıxmadığına görə onun haqqında təhqiredici açıqlama vermişdi. Mbappenin isə bu açıqlamaya cavabı xanım senatoru daha da hiddətləndirib.

## Martinezin numerologiya marağı boşa çıxdı



**Portuqaliya millisinin baş məşqçisi Roberto Martines vəzifəsindən gedəcəyini açıqlayıb. İspaniyalı mütəxəssis 1/8 finalda İspaniyaya məğlubiyyətdən (0:1) sonra keçirdiyi mətbuat konfransında bunun milli komandanın sükanı arxasında son oyunu olduğunu bildirib.**

Bu arada Martinezlə bağlı maraqlı detallar ortaya çıxıb. Portuqaliyanın məşhur "Record" nəşri hələ iyun ayında Martinezin numerologiya elminə maraq göstərdiyini iddia etmişdi. Məlumata görə, o, futbolçularına dünya çempionatında komandaya uğur gətirəcək rəqəmin 6 olduğunu deyirmiş. Məşqçi özü də verdiyi müsahibədə bunu təsdiq etmişdi: "Mən numerologiyaya inanıram. Düşünürəm ki, 6 rəqəmi bizə uğur gətirə bilər. 2016-cı ildə Portuqaliya Avropa çempionu oldu, 1966-da dünya çempionatındakı ən yaxşı nəticəsini göstərdi…"

Lakin təsadüf ironik sonluqla nəticələnib. Dünən Portuqaliyanı mübarizədən kənarlaşdıran yeganə qolu İspaniya millisinin 6 nömrəli futbolçusu Mikel Merino vurub. Üstəlik, qarşılaşma da iyulun 6-da keçirilib.



## Şarl de Ketelare ən yaxşı seçildi

**ABŞ-Belçika matçının ən yaxşı oyunçusu bəlli olub. FIFA-nın rəsmi saytı xəbər verir ki, bu ada Şarl de Ketelare layiq görülüb.**

Belçika millisinin hücumçusu 4:1 hesabı ilə qalib gəldikləri görüşdə dubl edib və 1 məhsuldar ötürmə verib.

Qeyd edək ki, Belçika millisi bu qələbə sayəsində 1/4 finala yüksəlib.

## Luis de la Fuente qələbədən danışdı



**1/8 finalda Portuqaliya seçməsinə 1:0 hesabı ilə qalib gələrək 1/4 finala yüksələn İspaniya millisinin baş məşqçisi Luis de la Fuente fikirlərini bölüşüb.**

O, matçın ardından təşkil edilən mətbuat konfransında belə danışıb: "Ən önəmli futbolçular oyuna sonradan qoşulanlardır. Merinoya demişəm ki, həmişə oynadığımız üsluba sadiq qalmalıyıq. Onun rolu yarımmüdafiə ilə hücum xətti arasında əlaqə yaratmaq, komandanın daha məzmunlu oynamasına yardımçı olmaqdır. Bu matçda Merinonun komandaya lazım olan ritmi və enerjini qazandırmasını istədik. Ehtiyat oyunçular skamyasından meydana daxil olan futbolçular əla səviyyə nümayiş etdirdilər. Heyətimizdə yüksəksəviyyəli 26 futbolçu var".

## Xorvatiya millisinin üzvü klubundan getdi



**Xorvatiyalı yarımmüdafiəçi Marselo Brozoviç Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubundan ayrılıb.**

Bu barədə Ər-Riyad təmsilçisinin Mətbuat xidməti məlumat yayıb. 33 yaşlı futbolçu klubda keçirdiyi 3 mövsümdə 124 oyunda 8 qol vurub, 23 məhsuldar ötürmə edib və ölkə çempionu olub.

Xatırladaq ki, Brozoviç "Əl-Nəsr"ə keçməzdən əvvəl 8 il "İnter"in formasını geyinmişdi.



## Lukakudan unikal rekord

**Belçika yığmasının hücumçusu Romelu Lukaku futbol üzrə dünya çempionatları tarixində unikal rekorda imza atıb.**

**33 yaşlı futbolçu 1/8 final zamanı 67-ci dəqiqədə meydana daxil olaraq 90+3-cü dəqiqədə son nöqtəni qoyub. Nəticədə Lukaku dünya birinciliklər tarixində əvəzetmədən oyuna qoşularaq 4 matçda qol vurmağı bacaran ilk futbolçu kimi tarixə düşüb.**

**O, ilk dəfə bu cür fərqlənməyi DÇ-2014-ün 1/8 finalında yenə də ABŞ yığması ilə qarşılaşmada (əlavə vaxtda 2:1) bacarmışdı.**

## Tramp Keynlə qolf oynayıbmış



**ABŞ Prezidenti Donald Tramp İngiltərə millisinin hücumçusu Harri Keyn ilə qolf oynadığını bildirib.**

O həmçinin DÇ-2026-nın 1/8 final mərhələsi çərçivəsində keçirilən Meksika - İngiltərə (2:3) matçını izlədiyini və ingilis forvardın oyununu xüsusi vurğuladığını qeyd edib. "Harri Keyn əla oyunçudur. Bilirsiniz, mən onunla qolf oynamışam və o, mənim çox xoşuma gəlir. Keyn yaxşı qolfçudur, həqiqətən əladır", - deyə Tramp bildirib.

## Portuqaliya millisinin baş məşqçi postuna əsas namizəd müəyyənləşib



**Roberto Martinesin istefasından sonra federasiya bu vəzifəyə təcrübəli mütəxəssis Jorje Jezuşu gətirməyi planlaşdırır. Bu barədə Portuqaliyanın "A Bola" nəşri məlumat yayıb.**

Məlumata görə, tərəflər arasında danışıqlar müsbət istiqamətdə davam edir və 70 yaşlı çalışdırıcının qısa müddətdə Portuqaliya millisinin yeni baş məşqçisi təyin olunacağı gözlənilir.

Qeyd edək ki, Jorje Jezuş məşqçilik karyerası ərzində "Benfika", "Sportinq", "Braqa", "Flamenqo", "Fənərbaxça", "Əl-Hilal" və "Əl-Nəsr" klublarını çalışdırıb. O, "Benfika" ilə 3 dəfə Portuqaliya çempionu, "Flamenqo" ilə Libertadores Kuboku və Braziliya çempionu, "Əl-Hilal"la isə Səudiyyə Ərəbistanı çempionu olub.

## Lotar Matteus FIFA-nı sərt təndiq etdi

**Almaniya millisinin sabiq üzvü Lotar Matteus DÇ-2026-da ABŞ millisinin hücumçusu Folarin Baloqunun diskvalifikasiyasının ləğvi ilə bağlı danışıb.**

O, bu qərarına görə FIFA-nı sərt şəkildə tənqid edib:

"Dünya çempionatı bizə bir çox möhtəşəm oyunlar və fantastik atmosfer bəxş etdi. Bəs, onların hamısını kim məhv etdi? FIFA və siyasət! Donald Tramp etiraf etdi ki, FIFA-ya zəng edərək Folarin Baloqunun cəzasını nəzərdən keçirmələrini istəyib. FIFA cəzanı ləğv etməklə nə özünə, nə də futbola yaxşılıq edir. Əksinə! Baloqunun Bosniya və Herseqovinaya qarşı oyunda meydandan qovulması tamamilə göz qabağında idi, xüsusən də qərar VAR-dan sonra verilmişdi. Və yenə də cəza ləğv edildi. Bu, sadəcə, gülüncdür! Bu, futbolda gördüyüm ən pis şeydir! Mən yeni turnirlərin və ya yeni qaydaların əleyhinə deyiləm. Reklamdan milyardlarla qazanc əldə edən üç dəqiqəlik fasilələr normaldır. Biz elə bir dövrdə yaşayırıq ki, mübahisəli şəkildə hər şey futbolun özündən daha vacibdir. Amma açıq-aşkar qırmızı vərəqənin ləğvi görünməmiş bir haldır! Bu, idmana müdaxilədir. Bu məni inanılmayacaq dərəcədə əsəbiləşdirir. Mən heç vaxt FIFA-ya qarşı heç nə deməmişəm. Amma indi çox qəzəbliyəm. İfadəmə görə üzr istəyirəm, amma qusmaq istəyirəm! Niyə başqa oyunçular şərti qırmızı vərəqə almadılar? Qalanların hamısı diskvalifikasiya edildi, necə ki, olmalı idilər. Ev sahibi və ya aparıcı futbol ölkələrinin



futbolçuları qorunursa, bu, ədalətsiz oyundur. FIFA özünü lağa qoyur. Bu, idmanı tapdalamaqdır".

Xatırladaq ki, ABŞ - Bosniya və Herseqovina matçında Folarin Baloqun VAR baxışından sonra rəqib futbolçu Tarik Muxaremoviçin topuğuna təhlükəli müdaxiləyə görə birbaşa qırmızı vərəqə almışdı. Sonradan FIFA bu cəzanı ləğv edərək şərti cəza ilə əvəzləyib. İddialara görə, bu, ABŞ Prezidenti Donald Trampın FIFA rəhbəri Canni İnfantinoya zəngindən sonra baş verib.

***Hazırladı:***
***Dönməz ABBASOV***

# Uşaqların zərərli təsirlərdən qorunması dövlətin sosial siyasətinin tərkib hissəsidir

## Bu cür təsirlərin ən təhlükəlisi isə nəzarətsiz sosial şəbəkələrdədir

**Gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilən sosial şəbəkələr kommunikasiya, informasiya mübadiləsi və təhsil sahəsində müsbət imkanlar yaradır. Lakin virtual mühitin inkişafı özü ilə bərabər zərərli təsirlər və risklər də gətirir. Xüsusən uşaqların virtual məkandakı təhlükəsizliyi mühüm aktuallıq kəsb edir və ölkəmizdə bununla bağlı addımlar atılır.**

Milli Məclisin növbədənkənar sessiyasının ötən həftə keçirilən plenar iclasında sosial şəbəkələrdə uşaqların hüquqlarının qorunmasına dair qanun layihəsi üçüncü oxunuşda qəbul edilib. Qanunvericiliyə edilən dəyişikliklərin əsas məqsədi uşaqları və yeniyetmələri internetin zərərli təsirlərindən qorumaq və onlar üçün təhlükəsiz şərait yaratmaqdır.

Uşaqların yetkinlik yaşına çatana qədər virtual təhlükələrdən uzaq olması çox vacibdir. Çünki bu, onların fiziki və psixoloji sağlamlığına, düzgün inkişafına, davranışına və sağlam dünyagörüşü ilə yetişməsinə müsbət təsir göstərir. İnternet mühitindəki zərərli informasiyalardan uzaq böyüyən uşaqlar real həyata daha yaxşı adaptasiya olur, diqqət dağınıqlığı və aqressiyadan qorunur, asılılıqlardan uzaq və sağlam bir fərd kimi formalaşırlar.

Yeni qanunvericiliyə edilən dəyişikliklərə əsasən, 16 yaşadək uşaqlar sosial şəbəkə platformalarında müstəqil şəkildə hesab yarada bilməzlər. Onların qeydiyyatına yol verilmir. Həmçinin 16-18 yaş arası uşaqlar sosial şəbəkələrdə hesab açmaq üçün mütləq valideyn icazəsi almalıdırlar. Bu, uşaqların müdafiə sisteminin mühüm bir tərkib hissəsidir. Dövlətimiz bu vasitə ilə uşaqların müdafiəsini gücləndirir. Bu, gələcəyimizə olan qayğının davamıdır. Uşaqlar yetkinlik yaşına çatana qədər sosial şəbəkə mühitində fəaliyyət üçün hazırlanmalıdır. Daha sonrakı dövrdə isə valideyn nəzarəti ilə onlara icazə verilməlidir.

Qanunun qüvvəyə minməsi və tətbiqi üçün 12 ay vaxt müəyyən edilib. Keçid dövrü ərzində bir sıra mühüm işlər görüləcək. Belə ki, yaş yoxlaması tətbiq ediləcək sosial şəbəkə platformalarının rəsmi siyahısı müəyyənləşdiriləcək, cəmiyyətdə geniş maarifləndirmə və məlumatlandırma işləri aparılacaq, müvafiq təlimlər təşkil olunacaq və yaşın təyin edilməsi üçün ən optimal texniki həllər seçiləcək və tətbiq ediləcək. Bu tənzimləmə, əslində, yeni deyil.

Dövlətimiz 2018-ci ildə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun qəbul etmişdir. Həmin qanun



uşaqların yaşına uyğun informasiya əldə etmək hüququnu qoruyurdu. Eyni zamanda uşaqlar üçün zərərli olan informasiyalardan müdafiə tədbirlərini müəyyən edirdi. Hazırkı mərhələdə edilən dəyişikliklər həmin tənzimlənmənin məntiqi davamıdır. İndi bu məsələlər sosial şəbəkələr müstəvisində həll olunur. Qanun layihəsi hazırlanarkən qabaqcıl beynəlxalq təcrübə təhlil edilib.

Uşaqların zərərli təsirlərdən qorunması dövlətin sosial siyasətinin əsas tərkib hissəsidir. Bu məsələ fərd, ailə, cəmiyyət və dövlət üçün böyük əhəmiyyət kəsb edir. Bununla bağlı görülən bütün tədbirlər uşaqların sağlamlığı və rifahı üçün tətbiq edilir. Dünyanın bir çox inkişaf etmiş ölkələrində bununla bağlı təcrübə artıq mövcuddur. Çünki müasir dövrdə sosial şəbəkələrin uşaqlara zərərli təsirləri bütün dünyada ciddi narahatlıq doğurur. Ona görə də dünya ölkələri sosial media platformalarında uşaqların təhlükəsizliyini təmin etmək üçün müxtəlif hüquqi və yaş məhdudiyyətləri sistemləri tətbiq edirlər. Danimarka, eləcə də ABŞ-nin Kaliforniya, Texas, Nyu York kimi ştatları sosial şəbəkələrə giriş üçün ən yüksək yaş həddini (18 yaş) tətbiq edir. ABŞ federal səviyyədə isə bu həddi 17 yaş olaraq müəyyən etmək istəyir. Fransa (15 yaş), İspaniya (16 yaş), eləcə də ABŞ-nin Kolorado, Florida kimi bəzi ştatları uşaqların qeydiyyatı üçün daha erkən yeniyetməlik dövrünü əsas götürürlər. Avstraliya, Böyük Britaniya və İrlandiya kimi ölkələr konkret yaş həddi ilə yanaşı, platformaların üzərinə uşaqları qorumaq üçün birbaşa hüquqi öhdəliklər qoyan xüsusi təhlükəsizlik sistemləri və qanunlar qəbul ediblər. Norveç isə bu addımları 2026-cı ilin sonuna qədər tamamlamağı planlaşdırır. Almaniya, Portuqaliya, Norveç, Türkiyə, Kanada, Yeni Zelandiya, Malayziya, İndoneziya və Hindistan da sosial şəbəkə platformalarında yaş məhdudiyyətləri müəyyənləşdirmək üçün qanunvericilik qərarları qəbul edib və ya etməkdədir. Qazaxıstan və Özbəkistanda da analoji qanunvericilik təşəbbüsləri mövcuddur.

Qlobal miqyasda rəqəmsal mühitin tənzimlənməsi və uşaqların virtual təhdidlərdən qorunması məsələsi dünya liderlərinin də əsas mövzularından biridir. Beynəlxalq arenada aparıcı dövlət rəhbərləri sosial şəbəkələrin yaratdığı riskləri, alqoritmlərin manipulyativ təsirlərini və virtual dünya ilə real həyat arasındakı hüquqi uyğunsuzluqları ciddi şəkildə tənqid edirlər. Onlar uşaqların rəqəmsal asılılıqdan xilas edilərək təbii uşaqlıq dövrlərini yaşamalarını və platformaların gənclərə nəzarətsiz çıxışının məhdudlaşdırılmasını vacib hesab edirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, "Bəzi rəqəmsal paylaşma tətbiqlərinin uşaqlarımızın zehnini pozduğu və sosial media platformalarının, açıq desək, zibilxanalara çevrildiyi bir dövrdə yaşayırıq. İnternetin nəzarətsiz və sərhədsiz dünyasına alqoritmlərin manipulyativ gücünü əlavə etdikdə mürəkkəb bir problem ortaya çıxır". Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen bildirib ki, "Məsələ gənclərin sosial mediaya çıxışının olub-olmamasında deyil. Məsələ sosial medianın gənclərə çıxışının olub-olmamasındadır". Norveçin Baş naziri Jonas Gar Storenin qeyd etdiyi kimi, "Biz bu qanunvericiliyi uşaqların uşaq kimi yaşaya biləcəyi bir uşaqlıq dövrü istədiyimiz üçün tətbiq edirik. Oyun, dostluq və gündəlik həyat alqoritmlər və ekranlar tərəfindən ələ keçirilməməlidir. Bu, uşaqların rəqəmsal həyatını qorumaq üçün vacib bir tədbirdir". İspaniyanın Baş naziri Pedro Sançez də mövzu ilə bağlı bildirib: "Real dünyada qanuni olmayan şey virtual dünyada qanuni ola bilməz". Yunanıstanın Baş naziri Kyriakos Mitsotakisin bildirdiyi kimi, "15 yaşdan aşağı uşaqların sosial şəbəkələrə girişinə məhdudiyyət 2027-ci ilin yanvarından qüvvəyə minəcək".

Milli Məclisin qəbul etdiyi yeni qanun rəqəmsal dövrün çağırışlarına verilən obyektiv bir cavabdır. Bu tənzimləmə dünyada gedən inkişaf meyilləri ilə tam uzlaşır. Uşaqlarımızın virtual dünyanın mənfi təsirlərindən qorunması, onların sağlam və təhlükəsiz böyüməsi hər birimizin ortaq hədəfidir. Azərbaycan dövləti bu addımı ilə öz gələcəyini, yəni uşaqları qorumaq üçün güclü bir hüquqi çərçivə yaradır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Daha 30 ukraynalı uşaq reabilitasiya məqsədilə ölkəmizə gətirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə 30 ukraynalı uşaqdan ibarət daha bir qrup sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilmələri üçün ölkəmizə gətirilib.**



Bu barədə AZƏRTAC-a agentlikdən məlumat verilib.

Bildirilib ki, ukraynalı uşaqlar agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük reabilitasiya proqramı çərçivəsində xidmətlərlə təmin ediləcəklər. Bu müddətdə onların emosional vəziyyətinin stabilləşdirilməsi və cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə fərdi konsultasiyalar, qrup terapiyaları, yoqa və rəqs terapiyası məşğələləri təşkil olunacaq. Uşaqlara müalicəvi masaj, müalicəvi hovuz və vanna, art-terapiya və digər növlərdə reabilitasiya xidmətləri də göstəriləcək.

Ukraynalı uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə onlar üçün müxtəlif ekskursiyalar, stolüstü oyunlar, müxtəlif yarışlar və digər tədbirlər də proqrama daxil edilib.

Qeyd edək ki, ötən dövrdə agentlik tərəfindən Ukraynadan 450-yə yaxın uşaq və gənc ölkəmizə gətirilərək sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilib.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Xocavənddə daha 41 ailəyə evlərinin açarları təqdim olunub









**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd şəhərinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr öz yurdlarına qovuşublar.**

Növbəti köç karvanı ilə Xocavənd şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 41 ailə olmaqla, 163 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.


## "GORAN PAMBIQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ SƏHMDARLARININ NƏZƏRİNƏ

**"Goran Pambıq" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, cəmiyyətin Nizamnaməsinə və korporativ idarəetmə prinsiplərinə uyğun olaraq səhmdarların növbəti ümumi yığıncağı 18 avqust 2026-cı il tarixdə saat 10:00-da Dəliməmmədli şəhəri, T.Əkbəri küçəsi, 20 ünvanında yerləşən cəmiyyətə məxsus klub binasında keçiriləcəkdir.**

**Yığıncağın gündəliyi:**

1. 2025-ci hesabat ilinin yekunlarına dair "Goran Pambıq" ASC-nin maliyyə-təsərrüfat fəaliyyəti haqqında İdarə Heyətinin hesabatının dinlənilməsi;
2. Maliyyə-Təftiş Komissiyasının hesabatının dinlənilməsi;
3. "Goran Pambıq" ASC-nin Müşahidə Şurasının üzvlərinin seçilməsi;
4. Digər məsələlərin müzakirəsi.

***"Goran Pambıq" ASC***
***Goranboy rayonu, Dəliməmmədli şəhəri***


# "Uşaqlar üçün qeyri-səlis məntiq" kitabı Özbəkistanda nəşr olunub

Xalq yazıçısı, akademik Kamal Abdulla, AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyev və Türkiyənin tanınmış təhsil və elm xadimi Ziya Səlcuqun həmmüəllifi olduqları "Uşaqlar üçün qeyri-səlis məntiq" kitabı Özbəkistanda özbək və rus dillərində nəşr edilib.




Bu barədə AZƏRTAC-a Azərbaycan Dillər Universitetindən məlumat verilib. Bildirilib ki, "Marifat" nəşriyyatında özbək dilində çap olunan kitabı Azərbaycan dilindən Özbəkistan Elmlər Akademiyasının həqiqi üzvü N.R.Yusupbekov və professor Y.Ş.Avazov tərcümə ediblər. Rus dilində nəşr olunan kitabın tərcüməçiləri isə akademik N.R.Yusupbekov və professor Ş.M.Qulyamovadır.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Səbinə Salmanovaya atası

**QƏDİR SALMANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3082
Sifariş 863

Qiyməti 60 qəpik